baqqıl : **baxqıl**. bax ginən. diqqət ed, yönəl. - bilgə ərik bulursan, **baxqıl** ona tabaru: bilən, danışman kişi tapsan, ona sarı diqqət ed, yönəl.

baqlacan: **baxlacan** paxlacan. badımcan. patlıcan. bütükə$_{ka}$.

baqlamaq$_{ka}$: **bağlamaq**. **boğlamaq**. **1**. tümək$_{ka}$ - **tü** ağzın. - qapını **tü**. **2**. kültürmək$_{ka.}$ kültələmək. kütləmək. buxovlamaq. - ayağı **kültürülmüş**. **3**. sarmaq. yularlamaq. - **sarmamış** sütdən qayaq: qaymaq bağlamadı. **4**. tuğlamaq$_{ka.}$ düğünləmək. qapatmaq. köstəkləmək. kişəmək$_{ka.}$

baqlan$_{ka}$: şişək. ətli canlı. baruq. - **baqlan quzı**$_{ka}$: yeni, səmiz quzu.

baqlanmaq : **bağlanmaq**. **1**. **boğlanmaq**. banmaq$_{ka.}$ - qoy **bandı**. **2**. yaprulmaq$_{ka}$. yapışmaq. yıpranmaq.

baqlantı : **bağlantı**. and. sözləşmə. bağaç. bağıc. bıçıq. və'də. əhd.

baqlatmaq$_{ka}$: **bağlatmaq**. buxcalatmaq.

baqna : **bağna**. pillə. basamağ. - on **bağnalı** pillə.

baqram : **bağram**$_{ka}$**. bayram**. (< **baq**. **bəq**. **bək**: kan. yekə). genişlik. böyüklük. açıqlıq. bolluq. - **baqram qum**$_{ka}$: qumluq yer.

baqrışmaq: **bağrışmaq**. 1. bangıraşmaq. manğraşmaq$_{ka}$. munğraşmaq. 2. sıxtaşmaq. ağlaşmaq. ıqlaşmaq. 3. kükrəşmək.

baqsaq : **bağsaq**. barsaq. baqırsaq$_{ka}$. bağırsaq$_{ka}$. barığsaq. könül alıcı. mehriban. rahim

baqu$_{ka}$: **baquq**. **bağqu$_{ka}$**. **baku**. təpə. ucalıq. yüksəklik. yüksəkcə yer. yoxuş. bəkük. bəkü. bərkik. bərki. qala. qorunmuş yer. istehkam.

baquq : **baqu**. bəkük. bəkü. bərkik. bərki. qala. qorunmuş yer. istihkam.

baqul : **bağul**. bar$_{ka.}$ bağ. böyük.

baqumaq$_{ka}$: bəkükmək$_{ka}$. bərkimək. möhkəmləşmək.

baqurmaq: **baxurmaq**$_{ka}$ baxtırmaq. görsətmək. - bir mən **baqur**.

balaxana: qalıma$_{ka}$**.**

bala$_{ka}$: nərsəyə kömək olaraq yapışdırılmış, qoyulmuş tikə. yardımçı. köməkçi. çıraq. uşaq. balaq. bəllə. bəllək. bələk. balqu. bəlgü. nişan. quş. heyvan yavrusu. - doğşan balası: **çavun**. **- bala bala**: balu balu$_{ka.}$ lay lay. **- bala bacı**: cınqıl. sınqıl.

balaq$_{ka}$: **balıq**. **bəlik**. **bəllək**. 1. mil. fitil. yara yoxlamaq üçün kullanılan mil. - **bəliklik** kəpəz: fitillik pambıq. 2. pilik. piltə. **- bəlikliq kəpəz$_{ka}$**: fitillik. fitil, piltə yapmaq üçün pambıq. 3. sovqət. ərməğan. töhvə. . **bilək**. **bələk**. ərməğan. dartıq. bala. bəllə. bəllək. bələk. balqu. bəlgü. nişan.

balaqlamaq$_{ka:}$ bələkləmək. ərməğan qılmaq. - ağırlayıb **bəliklədilər**.

balçıq$_{ka}$: **palçıq**. sıvıq çamur.

baldır$_{ka}$: bıldır. 1. ügey. üvey. - **baldır oğul**. ügey oğul. - **baldır qız**: ügey qız. 2. dağın burun kimi çıxan yeri. **- dağ baldırı.** 3. **-** ilk olaraq meydana gələn nərsə. işlədə birinci görüləni. - **baldır tarıq$_{ka}$**: ilkbahar başında əkilən əkin. **- baldır quzu$_{ka}$**: ilk doğulan quzu.

baldız : 1. < **baldır qız**: ügey qız. doğma olmayan qız. 2. arvadın kiçik bacısına, əji baldız söylər. - ərin kiçik bacısına, arvadı "**singil**" söylər. - ər arvadın böyük bacıları "**əkə**" çağrılır.

baldu$_{ka}$: balta. (< **bal**)

balıqçin$_{ka}$: balıq tutan, yeyən quş. balıqçı quş

balıq$_{ka}$: **balığ**. 1. palıçıq. balcaq. çamur. 2. yaralı. - balığ **ağrınır**: yaralı ağrır, sancılır, incir. 3. yara. yaralı. - düşdü ərənlər balığ, indi ürək **ağrınır**. - **balıqlanmaq**: yaralanmaq. - **balıqım** iriləmiş: çirkləmiş. - **balıqlar** əmləşdi:çarlaşdı. dərman qoyuldu. - balq qılmaq: yaralamaq. 4. çapaq. suda üzən balıq. - **balıq** suda, gözü dışda: bilən nərsəni bilməzdən gəlmək. 5. yetsik. yetim. ərsək. ərsik. ərişmiş. 6. qala.

- balıq yemək istəmək: **balıqsamaq$_{ka}$**.

- balıq avlanan bir çeşit ağ: **izdərik$_{ka}$**.

- balıq avlamaq üçün kullanılan ucu əğri dəmir: **olta**: **arqaq**$_{ka}$.

- balığı olan: **balıqlıq**$_{ka}$. - balıqçıl quşu. balıqçı quş: **balıqçın**$_{ka}$.

- balıq yiyəsi olmaq. balığın çoxalması: **balıqlanmaq**$_{ka}$.

- balıqlı: **balıqlıq**$_{ka}$.

balıqlamaq : balıq, yara vurmaq. yaralamaq.

balıqlanmaq$_{ka}$: **1**. balığın çoxalması. - göl **balıqlandı**. **2**. bulanmaq. - su **balıqlandı**. **3**. şəhər salmaq.

balıqlıq$_{ka}$: **1**. palçıqlı, çamırlı yer. **2**. balığı olan.

balıqmaq$_{ka}$: yaralanmaq. - ər **balıqdı**.

balıqsamaq$_{ka}$: balıq yemək istəmək.

balın : balqın. bulğa. ürküntü. qopuş. bəlva

balış : (< **bal**: bölük). (balıq, baldır kimi) bütünlənmiş, kəsilmiş, doldurulmuş tikə. yastıq. püşti (**ş** <> **k**) bükti.

bal$_{ka}$: bal. arı yağı. - bal arısına bənzəyən blr sin**ək**: **muquzqaq**$_{ka}$.

balqat : batlaq. palçıq.

balqın : **1**. quşuq. ürkük. **2**. ürküntü. qopuş. bulğa.

balqınmaq : quşq olmaq. atılmaq. diksinmək. ürkmək.

balq$_{ka}$: çamur - balıq.

balqu : bəllə. bəllək. bəlgü. bələk. bala. balaq. nişan.

balmaq$_{ka:}$ bağlanmaq. - banmaq.

balsap : sapdal. sapbal. dalsap. saplaq. bəsbəl$_{ka}$. sap. bir tel sap. söküm.

balta : baldu$_{ka}$.

baltuq$_{ka}$: balta. - qarı öküz **baltuqa** qorxmaz.

balu balu$_{ka}$: bala bala. lay lay. ninni söyləmək.

bamaq$_{ka}$: bağlamaq. - o atın ayağın **badı**.

bamıq : pamıq.

bancuq : mancuq. (< **bağlamaq**). bağlı. xurcun. buxca.

bancuqlamaq: mancuqlamaq. (< **bağlamaq**). xurcunlamaq. buxcalamaq.

bandeytaxt$_2$: - **bandeytaxt$_2$ törəni**: bandırı. mandırı$_{ka}$. gəlin, qüveyin başına saçı, töhvə saçılan yer, törən.

bandırayazmaq: manqırmaq$_{ka}$

bandırı : **mandırı$_{ka}$**. gəlin, qüveyin başına saçı, töhvə saçılan yer, törən. bandeytaxt$_2$ töreni.

bandırmaq: mandurmaq$_{ka}$. batırmaq. quşatmaq.

bang : **bañg**$_{ka}$ **1**. bung. böñg$_{ka}$. ağır bir şeyin düşməsiylə çıxan səs. **2**. bağırma·.

banılmaq: <> **manılmaq**$_{ka}$.

banq : < **bəñg**$_{ka}$. vəng. vəngildəmə səsi.

banqıramaq : **bañğıramaq** . bağırmaq. manğramaq$_{ka}$. munğramaq.

banqıraşmaq: **bañğıraşmaq**. bağrışmaq. manğraşmaq$_{ka}$. munğraşmaq.

banqıratmaq: **bañğıratmaq**. bağırtmaq$_{ka}$. manğratmaq$_{ka}$. munğratmaq.

banqraşmaq: **banraşmaq.** manraşmaq. bünrəşmək. münrəşmək. kükrəşmək.

banqu : manqu. manğqu$_{ka}$ əbədi. sonsuz. dayimi.

banmaq$_{ka}$: bağlanmaq. - qoy **bandı**.

banzı$_{ka}$: **bənzə**. **bənəz**. nərsənin qırılıb, kəsilib pozulduqdan sonra qala qalıntıları, qırıntıları, dənləri bənləri, tikələri, izləri.

bar : - **bar mu**$_{ka}$?: var mış ?.

baraç : barça$_{ka}$. barıç. bütünü.

baraqan$_{ka}$: varğan. varan (çox).

baraq$_{ka}$: parraq, yunlu tüklü qöpək. - **baraqlıq**$_{ka}$: köpəyi olan kişi.

baran : gələn. - **baranlar**: gələnlər. - **baran** varmı: gələn varmı.

barası$_{ka}$: varısı, varılacaq, gediləcək, barası yer. - **barası** yerin yoxdu.

barça$_{ka}$: baraç. barıç. bütünü. - **barçız** gəlin: hamız gəlin.

barçı : **arçı**$_{ka}$. **1**. araç. tapış$_{ka}$. təpiş$_{ka}$. vəkil. **2**. xurcun. heybə. - bir baş min **barçın** tutdu, bir **barçın** iki baş tutmadı.

barçın$_{ka}$: parça. qumaş. turqu$_{ka}$**. yolaq barçın**. yolaq parça. yol yol parça. yol yol çizgiləri olan. - töşəklik **barçın**. döşək bənzəri şeyləri yapmaq üzərə hazırlanıp ayrılmış olan. - boyalı **barçını**: boyalı parça. - barçın boyuğu **onqdı**: parçanın boyası atdi. - **barçın** geyir: parçaya bürü. - bir qolaç **barçın**. - türlü çiçək yarıldı, **barçın yazım** gərildi. - **barçın** yamağı barçına. - yaşıl yerlik barçın.

bardaq : bart$_{ka}$. ölçəv. buqaç. kasa.

barduqı$_{ka}$: vardığı.

barğın : var yox. şey şüy. - **evin barğın** satığsadı: ev eşiyin.

barıç : barça$_{ka}$. baraç. bütünü.

barıçtırmaq : barışdırmaq. aralamaq$_{ka}$. arılamaq. arasını bulmaq.

barıq$_{ka}$: **1**. gediş. - o **barığ berdi**: o dopa doğru, heç bir saymadan geddi. o geddiki geddi. **2**. barlanmış. sasımış. **barıq sasıq**$_{ka}$: qoğumuş, pozuq, xarab şey. **3**. qeyrət. bağır.

barıqlı$_{ka}$: **1**. varıqsı. gedikli. varmağa,. gedməyə diləkli, istəkli. **2**. yerikli. melli. əğimli. vurqun. düşgün. məczub. - mən sənə **barıqlı**, səndə mənə **baruqli**.

barıqsaq: **barığsaq**. baqırsaq$_{ka}$. bağırsaq$_{ka}$. bağsaq. barsaq. könül alıcı. mehriban. rahim

barıqsamaq$_{ka}$: barsamaq. varmaq.

barılmaq$_{ka}$: varılmaq.

barımsınmaq$_{ka}$: qedəri yazımaq.

barın : (qadınlarda) aybaşı. qaidə.

barındı : gediləcək yer.

barınmaq$_{ka}$: qadınların aybaşı qanı gedsəi, boşanması.

barınmaq$_{ka}$: qidilmək. varılmaq.

barış : varış. elik. qavuş. bir araya gəlib oturmaq. sülh.

barışdırmaq: barıçtırmaq. aralamaq$_{ka}$. arılamaq. arasını bulmaq.

barışıq : barışma. qavşut$_{ka}$. baysallıq. qavşış gəlişiş.

barışlıq$_{ka}$: **1**. qonuq odası. **2**. varılan yer.

barışma : barışıq. qavşut$_{ka}$. baysallıq. qavşış gəlişiş.

barışmaq: eytişmək$_{ka.}$ curlaşmaq. yarışmaq. birbirinə gedmək.

barıştırmaq: ətişmək$_{ka}$. edişmək.

bar$_{ka}$: **1**. var. . - ev **bar**: ev **var**: ev eşik. - **evin barqın** satığsadı: ev eşiyin satmaq istədi. **2**. bağ. bağul. böyük. - **bar kişi**: yekə ər.

barq : bax > **bar**.

barqa : şallaq.

barqaq : barlı. yüklü. dolu.

barqalı qaldı$_{ka}$: qedəyazdı.

barqalmaq: barlanmaq. yüklənmək. dolunmaq. - damar **barqalandı**.

barqan$_{ka}$: **bazqan**$_{ka}$. mərsin ağacının yemişi.

barqas : qeyrət.

barqın$_{ka:}$ varqan. varan. gedən. gedicl. gedəri. gedməyə dayaqlı, istəkli. - **barqın kişi**$_{ka}$: yolundan alıqalmayan kişi.

barqıraç: **bağırçaq**$_{ka}$. yük döşəyi. səmər. palan. .

barqu : gedmək. - barquz **yaqtı**: gedməyiz yaxınlaşdı.

barquçı$_{ka}$: varıcı. gedici.

barqu$_{ka}$: varılacaq. - **barqu** yer. gediləcək yer.

barlanmaq: **1**. qatlanmaq$_{ka.}$ yüklənmək. **2**. yemişlənmək$_{ka}$. barşılmaq.

barlanmış : barıq$_{ka}$. sasıq. sasımış.

barlı : barqaq. yüklü. dolu.

barlıq$_{ka}$: mallı.

barmaq : **varmaq**. **1**. əl$_{ka.}$ ərənkək ərnək$_{ka.}$ ərkən. ərngək$_{ka}$. (< **ərmək**). - beş **barmağ** bir dəgil: beş **ərənək** düz ərməs. - əli**qin**: barma**ğınan**. - ay dolun olsa, əli**qin** imlənməz: ön dörd gecəlik ay barmağınan göstərilməz. - dördün barmaq. **çıçamuq$_{ka.}$ çıçaqım**. çoçala barmağın yanındaki barmaq. üzüq parmağı. **2**. ərmək$_{ka}$. olmaq. - indi görən nə ərdi. **3**. hazır olmaq. hizur tapmaq. **4**. tapılmaq. pəyda olmaq.

- barmaqlı qapı: sədrəkli qapuq$_{ka}$.

- barmaqlıq: seyrək, arlıqlı, nərdəli ortük. səkrək. səkrək$_{ka}$.

- barmaqlıqlı qapı: - **sədrək qapuq$_{ka}$ş** seyrək qapı**.**

barsaq : bağsaq. baqırsaq$_{ka}$. bağırsaq$_{ka}$. barığsaq. könül alıcı. mehriban. rahim

barsamaq$_{ka}$: **barıqsamaq**. varmaya yazmaq.

bars$_{ka}$: **pars**. qabartı. şiş. paysa$_{6}$.

- bars bolmaq$_{ka}$: paysalmaq$_{6}$. qabarmaq.

- ətim **barsıdı**: bədənim şişdi.

- bars bolmaq$_{ka}$: paysalmaq$_{6.}$ qabarmaq.

barşatçılıq: muyıncılıq$_{ka.}$ boyunçuluq. araçılıq. ortaçılıq.

barşılmaq: yemişlənmək$_{ka}$. barlanmaq.

bart$_{ka}$: **1**. ölçəv. **2**. bardaq. **3**. - **bart burt tutmaq**$_{ka}$: itiliyi göstərən söz. ansızın, hər yandan yaxalamaq.

barturmaq$_{ka}$: vardırmaq. çatdırmaq. - onu evə **bartur**. - kağızı **bartur**. - bunu atova **bartur**.

bartuş : **bətrüş. batruş$_{ka}$**. **1**. quyuq. bərk. qəliz. gərik. (bərk xəmir, şorba, aş, palçıq). **2**. bulanıq. bulğan. - batruş suv. bulanıq, laylı, zığlı su.

baruçı$_{ka}$: varıcı. gedici.

baruq : **1**. baqlan$_{ka}$. şişək. ətli canlı. - **baqlan quzı**$_{ka}$: yeni, səmiz quzu. **2**. varlı dövlətli. - **baruq** bəy. - baruq ölkə. **baruq** duyqular. **3**. gediş. hərəkət. - baruğ yaxdı: hərəkət çağı çatdı.

bas : basa$_{ka.}$ bəs. sonra. (> **pəs$_{fars}$**).

basa$_{ka}$: bas. bəs. sonra.

- sən məndən **basa** gəl.

- ilkin mən **basa** sən. (> **pəs**$_{fars}$).

basan$_{ka}$: **bəsən**. ölü qömüldüqtən sonra verilən yemək. **yoğ bəsən**.

basar$_{ka}$: dağ sarımsağı. - **basarlıq**$_{ka}$: sarımsaqlıq.

basarmaq : basırmaq. kük yatmaq.

basdıran : basuran. saxlayan kimsə. sir saxlayan.

basdırmaq$_{6}$: döğdürmək. taptadmaq. - qılınc, pıçaq **basdırmaq**$_{6}$.

basıq : **1**. basruq$_{ka}$. basırıq. ağır. **2**. baha. **3**. basılan yer. basqın yeri. - o **basıqda** tutuldu. **4**. batıq. batqın. bulqın. bulın. bulanıq. fasid. altaq. alaqut. tutuq$_{ka}$. mürdar.

basıqmaq$_{ka}$: **bassıqmaq**. **1**. alçalmaq. təhqir olmaq. **2**. sınmaq. - yağıya **basıqma**. - istəyi basqınan, duyqulara **bassıqma**. **1**. önəmsiz adam.

basıqmaq$_{ka}$: bax > **basılmaq**.

basılmaq: batılmaq. sancılmaq$_{ka}$. yenilmək. sınmaq. - yağı **basıldı**. - qoşun **basıldı**.

basın : **1**. basıncaq. dəğərsiz. alçaq. - **basınçaq** ər: **basın** ər: zayıf görülən. önəm verilməyən adam. **1**. düşgünlük. düşüklük. düşün. zə'f. - yaşlılıq basını. **1**. təzif. - yeməməkdən basındıq. (# **bəsin**: gücərti. vitamin. bəslənmək).

basıncaq: **1**. basın. dəğərsiz. alçaq. - **basınçaq** ər: zayıf görülən. önəm verilməyən adam. **2**. **basqıncaq.** basılmış. arıqlamış. zayıflamış. (# **bəsincək**: qollanmış) - **basıncaq ər**$_{ka}$

basınmaq$_{ka}$: **basıqmaq**$_{ka}$. **bassıqmaq**. **1**. basmaq. sıxmaq. qahr edmək. əldən salmaq. zayıflatmaq. - iğləş onu **basındı**: xəsdəlik onu əldən saldı. - ölkə bazarı, alış veriş **basındı**. - döğüş olsa ox bazarı **basınmaz**. - uşağ yeməməkdən basındı. - yaşlılıq onu basındı. **1**. sınmaq. alınmaq. - ölkə **basıqdı**.

basır : **basur**$_{ka}$. **1**. batur. sirr. gizək. **1**. qala. dayanmaq, durmaq yeri. səngər. istihkam.

basırmaq: **1**. basarmaq. kük yatmaq. **2**. baturmaq$_{ka}$. gizlətmək. gizli saxlamaq. **3**. tikmək. bastırmaq. təpcəmək. - bu donu **basır**. **4**. bastırmaq. durdurmaq. dikətmək. saxlamaq. bərkitmək. ağırlatmaq. möhkəmlətmək. - tanrı yeri, dağla basurdu.

basıt$_{ka}$: **basut**$_{ka}$ (< **basmaq**). **1**. yardam. yarav. kömək. qoldav. himayət. - mənə **basut** verən yoxdu. - xandan **basut** dilədi. - **basut** yalnız ondandı. **2**. acıyan. mehriban. **3**. zamin. güvən. - **basut** ara: zamin gətir.

basqın : - basqına uğramaq: **bassıqmaq**$_{ka}$.

basmaq$_{ka}$: **1**. üzərinə çökmək. tutmaq. - çoğun yel dağı **basdı**. - badı ölüm axtaru: ölüm tutub, yaxalayıb apardı. **2**. almaq. fəth edmək. - **bəy** el basdı: bəy ölkəni tutmaq. fəth etdi. - bəyi yağı basdı: düşman bəyi tutdu. **3**. təcavüz edmək. - ər qızı **basdı**. **4**. avlamaq. - it geyiki **basdı**: it ovı avladı, tutdu. **3**. cummaq. üzərinə şığırmaq. - tünlə belə **basdıq**: hicuma keçdik. **5**. tikmək. bastırmaq. təpcəmək. - bu donu **basır**. **6**. qəhredmək. basınmaq$_{ka}$. **1**. soxmaq. əkləmək. ilişdirmək.

basmaşmaq: oyuşmaq$_{ka.}$ oymaşmaq.

basrıq : basruq$_{ka}$. ağır. basırıq. - yer **basruqı** dağ, boyun basrıqı bəy.

basruq$_{ka}$: **basrıq**.

bassıqmaq$_{ka}$: basılmaq. basıqmaq. sınmaq. yenilmək.

bastıq : soğtu. soqut.

bastırma: köpik. iki qətləyib tikmək. bezin iki qatı arasına pambıq qoyaraq tikmə.

bastırmaq : bax > **basturmaq**$_{ka}$

basturmaq$_{ka}$: batsırmaq. bastırmaq. qapatmaq. sındırmaq. üstələmək. tıqturmaq$_{ka}$**.** tıqtırmaq.

basu$_{ka}$: dəmir toqmaq.

basur : bax > **basır**.

basurmaq$_{ka}$: bax > **basırmaq**.

basut$_{ka}$: bax > **basıt.**

baş : **başaq**$_{ka}$. **1**. bəxt. şans. fürsət. - **başım** olsa, görəyim. - başsız qaldı, elim mənim. - **baş** bulub, cecim cırdıq. - **baş** bulmadan davranan, başı yerə ağnanar. - baş olsa, yaş olunur. - **başım** (bəxdim) çönüb **tüplünür**. - **baş** olmasa, baş qalmaz \\ yar olmasa, dad qalmaz. - eşək deyir, **başım** bulsa, sündürüdə su içqay mən. **2**. yara. - bağrım **başın** qartadı: ürək **yaramı** açdı. **3**. qafa. təpə. kəllə. - başa vurmaq: **başaqa** qaqmaq: **başqa** qaqmaq.

- baş əğən: yükünqüçi$_{ka.}$ ibadət edən.

- baş kənd: ordu kənd. devlətin, xanların yerləşən kəndi.

- baş yer: otru. dayancaq. astana. başkənd. paytəxd. mərkəz. - ölkə **otrusu**: ölkənin başkəndi.

- **başı ağ**: **başqıl**$_{ka}$. **başqal**. **başlaq**. qaşqa. - keçəl baş: **qırbas ər**$_{ka}$.

başağı : başqa. isrə$_{ka.}$ qeyr. sonra.

başaq$_{ka}$: **başqaq**$_{ka}$. **1**. ox başağı. oxun, mızrağın ucuna keçirilən dəmir. təmrən. **2**. **basaq**. (< **basmaq**). başmaq. ayaxqabı. **3**. sünbül. sütül. - başaq ütmək. başaq qavurmaq: suruşlamaq$_{ka}$. **4**. **baş$_{ka}$**. - başa vurmaq: **başaqa** qaqmaq: **başqa** qaqmaq. **5**. oyluq gəmiklərinin başı. **6**. (. > **m**) başmaq$_{ka}$.

başaqlamaq$_{ka}$: başaq, təmrən, dəmir uc taxmaq.

başaqlıq$_{ka}$: başlı.

başamaq$_{ka}$: **1**. başbaşa vermək. ağacların birbirinə dayalı qonuşu. **2**. kərtik yapmaq. kərtikləmək.

başandaq : ölandaq. (öz ölümünə, başına and içən kişi). yoluq. alsığ. fədayi.

başarcaqlı: yol bilən. ərik.

başarmaq: bağışlamaq. keçürmək$_{ka}$.

başbaşa : - **başbaşa vermək**: başamaq$_{ka}$. ağacların birbirinə dayalı qonuşu.

başçılıq edmək: başlamaq$_{ka.}$ cilovlamaq. qılavuzluq edmək. qılavlamaq.

başıboş : başlağ$_{ka}$. buraxılmış. salıverilmiş. boşaltılmış. daşlanmış. dışlanmış. - **başı boş**: quruq. səfeh.

başıl$_{ka}$: **başqıl**$_{ka}$. **başqal**. **başlaq**. qaşqa. başında, alnında ləkəsi olan. - **başıl qoy**: təpəsində ağı olan qoyun.

başkənd: otru. dayancaq. baş yer. astana. paytəxd. mərkəz. - ölkə **otrusu**: ölkənin başkəndi.

başqa : **1**. başağı. isrə$_{ka.}$ qeyr. sonra. **2**. azuq. ağduq. adquq. ayuq. ayquq. yad.

başqa : önğin$_{ka}$. önği$_{ka}$. başqası. dışında. edin$_{ka.}$ atın. adın. atruq. ayruq.

başqaq$_{ka}$: **başaq**. oyluq gəmiklərinin başı.

başqal : **başqıl**$_{ka}$. **başlaq**. başıl. başı ağ. qaşqa.

başqan$_{ka}$: böyük bir balıq.

başqası : önğin$_{ka}$. başqa.

başqatmaq: qatarmaq$_{ka.}$ qadarmaq. qaytarmaq. qeytərmək. geri döndürmək. çevirmək.

başqıl$_{ka}$: **başqal**. **başlaq**. başıl. başı ağ. qaşqa. - **başqıl** yılxı: başı ağ heyvan.

başlaq : **1**. **başlağ**$_{ka}$. başıboş. buraxılmış. salıverilmiş. boşaltılmış. daşlanmış. dışlanmış. - **başlağ** yılxı: **boş** yılxı. başı boş buraxılmış heyvan. öz başına yeriyən heyvan. başıboş salınmış heyvan sürüsü. **2**. **başqıl**$_{ka}$. **başqal**. başıl. başı ağ. qaşqa.

başlamaq$_{ka}$: **1**. aşmaq$_{ka}$. aşqarmaq. işə keçmək, atılmaq. **2**. durcımaq. **3**. qılavuzluq edmək. qılavlamaq. cilovlamaq. başçılıq edmək.

başlanqıc: turcaq. dirsək. giriş. salma. ilkə. ilək. ərəfə. - iş **durcağı**. - pitik **durcağı**.

başlanmaq$_{ka}$: **1**. başlanmaq. yönəlmək. baş alıb gedmək. - qoyun dağa **başlandı**. **2**. baş tutmaq. başaqlanmaq. - əkin **başlandı**.

başlanmaq$_{ka}$: yönəlmək.

başlatmaq$_{ka}$: turcitmək$_{ka}$. törcütmək. durcutmaq. dirsətmək. girşitmək. qursatmaq. işə salmaq. bərpa edmək.

başlayan: öndər.

başlı : ayıq. azıq$_{ka}$. huşlu.

başlıq$_{ka}$: **1**. yaddaş dəfdəri. **2**. aşuq$_{ka}$. yaşuq. başı yaşıran (örtən. qoruyan) örtük. başuq. - gəlinin gərd**əh** gecəsi taxdığı başlıq: **didim**$_{ka}$. **3**. yanalduruq. yanğalduruq$_{ka}$. **4**. başlı. **5**. yaralı.

başmaq$_{ka}$: (**m** >.) başmaq$_{ka}$.

başmaqlanmaq$_{ka}$: başmaq yiyəsi olmaq.

başnaq$_{ka}$: (**baş** + **naq**: **laq**: yoxluq, nəfy simgəsi) yaraqsız quralsız, tulqasız, savutsuz, qalxansız, başqasız$_{6}$ kimsəsiz kişi. - **başnaq ər**$_{ka}$.

başörtüsü: saraqıc$_{ka}$. sarqıc. sarcıq. yaşmaq.

baştar$_{ka}$: oraq.

başuq : aşuq$_{ka}$. yaşuq. başı yaşıran (örtən. qoruyan) örtük. başlıq.

bataq : **1**. yapanğ$_{ka.}$ qumluq. yeriməyi çətin olan yer. **2**. cəza. (# **tapaq**: mükafat).

batı : **1**. gün batsıq. gün batısı. qərb. **2**. savaq. soyuq. - **ısıq savuq**: doğu batı.

batıq$_{ka}$: **basıq**. **1**. bataq. batlaq. **2**. ırmaq, sulu yerlərin dərin, çuxur bölümü. **3**. batqın. bulqın. bulın. bulanıq. fasid. altaq. alaqut. tutuq$_{ka}$**.** mürdar.

batıqlıq : baynaq$_{ka}$. pislik. kifirlik.

batılmaq: basılmaq. sancılmaq$_{ka}$. yenilmək. sınmaq. - yağı **batıldı**. - qoşun **batıldı**.

batırmaq. **1**. mandurmaq$_{ka}$. bandırmaq. quşatmaq. **2**. dövmək. vurmaq. çarpmaq. toxumaq. toxunmaq. toqımaq$_{ka}$. dövülərək sərtləştirmək. götürmək,

batqa : **batğa**$_{ka}$. tabğa. tabağ. düz, saf taxda.

batqın : batıq. basıq. bulqın. bulın. bulanıq. fasid. altaq. alaqut. tutuq$_{ka}$. mürdar.

batlamaq$_{ka}$: **1**. paltarları sərtləşib parlaq edmək üçün yapışqan maddəyə batırmaq. **2**. nəyi nəyə batırmaq. bulamaq.

batmaq : **1**. basmaq. qurmaq. - **qası badım**: ağıl düzədim, basdırdım. **2**. qözdən itmək.

batmış : man. dolmuş.

batmul$_{ka}$: qara bibərə bənzər bir bitgi. darü fülfül - bib. butmul.

batraq$_{ka}$: **bayraq**. sancaq. pərçəm. ucuna ipək sırıqlar sancılan, taxılan, batırılan neyzə, ağac. döyüşdə qoşun bəlgəsi, nişanı. - **bayraqlı**. sancaqlı: tuqlu$_{ka}$

batruş$_{ka}$: **bətrüş**. **bartuş**. **1**. quyuq. bərk. qəliz. gərik. (bərk xəmir, şorba, aş, palçıq). **2**. bulanıq. bulğan. - batruş suv. bulanıq, laylı, zığlı su. **3**. savaş. qavqaş.

batruşmaq$_{ka:}$ batışmaq. birbirini batırmaq, cumdurmaq, yendirmək.

batsıq$_{ka}$: batı. qərb. - **gün batsıq**. gün batısı.

batsırmaq: basturmaq$_{ka.}$ bastırmaq. qapatmaq. sındırmaq. üstələmək.

batur : (< **batırmaq**). batır. batırılmış, döğülmüş, toxulmuş bərkimiş nərsə. sökmən. qəhrəman. basur. sirr. gizk.

baturqan$_{ka}$: **basuran**. basdıran. saxlayan kimsə. basdıran. sir saxlayan.

baturmaq$_{ka}$: **basırmaq**. gizli saxlamaq. - sən öz sözünü məndən **batırma**. - nəyi nədən **baturursan**. - **batrılan** işlər, açılar bir gün.

bavıllatmaq$_{6}$: hürdürmək. gəritmək$_{ka}$. qarıldatmaq. havlatmaq. səsin çıxarmaq.

baya$_{ka}$. : az öncə. bayağ.

baybayuq$_{ka}$: kələbək quşu.

bayıq$_{ka}$. : doğru. açıq. - **bayıq** söz: doğru söz.

bayılayazmaq: ölşəmək$_{ka}$. əlşəmək$_{ka}$. acıqıp qözləri qararmaq.

bayın$_{ka}$. : qoyu qırmızı. gəlinciq çiçəğin rəngi. yipin. yipqil. yipqin.

bayıtmaq: bax > **bayutmaq**.

bay$_{ka}$: zəngin.

bayquş : **bağırqa**. **boğurqa quburğa**$_{ka}$. üki. ühi. yapaqulaq$_{ka}$. yapaqulaq$_{ka}$. quburğa$_{ka}$. bağırqa. boğurqa.

baynaq$_{ka}$: pislik. batıqlıq. kifirlik.

bayraq : **batraq**$_{ka}$. pərçəm. ucuna ipək sırıqlar sancılan, taxılan, batırılan neyzə, ağac. döyüşdə qoşun bəlgəsi, nişanı. - **bayraqlı**. sancaqlı: tuqlu$_{ka}$. - ağdı qızıl **bayraq**, doğdu qara topraq.

bayram : bax > **baqram.**

baysallıq: qavşut$_{ka}$. barışıq. barışma. qavşış gəlişiş.

bayuq$_{ka}$: (**y** < > **d** < > **z**) bədüq$_{ka}$. bəyük. böyük. (**d** < > **z**) bəzük. bulğay. ulğay.

bayumaq$_{ka}$: zənginləmək.

bayutmaq$_{ka}$: (**y** < > **d** < > **z**) **bədütmək**$_{ka}$. **bəyütmək**. **böyütmək**. **böyütmək**. bulğaytmaq. ulğaytmaq. zənginlətmək. devlətlətmək. - tanrı məni **bayutdu**.

bazıç$_{ka}$. : **badıc**. **bağıc**. - bağıc **üzümləndi**.

baz$_{ka}$: (< met > **zab**. **zap**. **sap**. sapıq, yan, qıraq olan nə). yat. özgə. - yat **baz** yazıldı: özgəlr dağıldılar. -

bazqan$_{ka}$: **barqan**. mərsin ağacının yemişi.

becəri : bəsli. bəsili. əkdi. tərbiyəli. - **əkdi** uşaq.

becərilmək: əkdilmək$_{ka.}$ əkilmək. bəsilmək.

becərtmək: çatmaq. yetiştirmək. - davar çatmaq. - qoğun çatmaq.

beq : **bek.** bək. bey. ul$_{ka.}$ ol. kök. pey. təməl. him.

bel :

- bel qılmaq$_{ka}$: bellənmək. kökəlmək.

- yedi yedi **bel qıldı**. **- bel qılmaq**$_{ka:}$ bir kimsəyə diləğindən çox yemək vermək.

belbağ : bağ. quşaq. qurşaq. urama. kəmər.

belə : bilə. birlikdə.

- ölüğ **belə** qoşuldu.

- onu pıçaq belə tildirdi.

- mənim **belə**: mən ilə.

- olar bir ikindi **belə**.

- ərdəm belə öqləlim. qoldaş **belə** yarışqıl.

- omun yorıq nətək kişi **belə**: onun davranışı necədir elinən.

- kimin **belə**, qaş olsa, yaş yaxmaz: kimin ilə, qaş (qutsal daş) qaş olsa, ıldırım çarpmaz.

belənmək$_{ka}$: belinə almaq. bellənmək. - **bükdə belənmək**: qılınc bağlamq.

belinğləmək$_{ka}$: sıçramaq (qorxudan). qorxu ilə yuxusundan sıçramaq. ürkmək.

belinğlətmək$_{ka}$: bəlinləmək. quşqutmaq. diksindirmək. ürkütmək.

belinləmə: qöçrüm$_{ka}$. dalâş. ürküş.

belləmək: ağdarmaq. axtarmaq$_{ka}$ sabanlamaq. - yeri **ağdarmaq**: toprağı sabalamaq.

bergü : (< **ver**mək. **ber**mək). - vergü varmaq: borcu olmaq. - sənin mənə bir nə **bergün** var: sənin mənə bir şey borcun bergün var.

berik : verik. verən. comərd.

berilmək$_{ka:}$ verilmək.

berimli : berimçi. borclu. - alımlı arslan, **berimli** sıçan.

berqil$_{ka}$: borc.

bert$_{ka}$: **vert**. verqi. kölənin hər il verdiyi vergi.

beşik : bekik. yasım. yatım. döşək. - **beşikliğ uraqut**$_{ka}$: sütəmər uşaqlı qadın. - **beşigə bağlamaq**. bələmək$_{ka}$. bulaştırmaq.

bey : bax > **bəq**. bək. bek. ul$_{ka.}$ ol. kök. pey. təməl. him.

bez : büzük. qabar, turuq$_{ka}$, dolama kimi olan. - bu büzüyü **qarşat**: bu bezi qarışla, ölç

bezgək$_{ka}$: beziq$_{ka}$. titrəmə.

bezik$_{ka}$. : **bəzik**$_{ka}$. **bezgək**. titrəmə. - o **bəzik bəzdi**: o bətər titrədi.

bez$_{ka}$: **bəz**. ətlə dəri arasında bulunan bez.

bezmək$_{ka}$: **1**. bıqmaq. turulmaq$_{ka}$. durulmaq. yorulmaq. tuqunmaq. tükünmək. usanmaq. büşmək. bıqmaq. - işdən **büşüb** dardıq: bezdik. **1**. titrəmək.

bəbir : babır. burslan$_{ka}$. bəbir. tonqa$_{ka.}$ tunqa$_{ka.}$

bəbr : bax > **bəbir**

bəcəl$_{ka}$: **1**. bıçıl. biçilmiş. iğdiş edilmiş. əxdə. xədim. **2**. **dəcəl**. kişidə, heyvanlarda ən üclüsü, qıvraqı.

bəcərikli: atım$_{ka}$. atımllı. çıxarlı.

bəçkəmləmək$_{ka}$: **biçkəmləmək$_{ka}$**: **bıçkəmləmək$_{ka}$**. **pərçəmləmək**.

bəçküm$_{ka}$: **baçküm**. şıp$_{6}$. çıp. evin üst örtüsü, çapı.

bəçqəm$_{ka:}$ **bəçkəm**$_{ka}$. **biçkəm**. **1**. bicək. sənəd. **2**. əlamət. bəlgə. **3**. **pərçəm**. ipəktən, yaban sığırı quyruğundan yapılan əlamət olup savaş günlərində yiğitlər taxınırlar. - **biçkəm** vurub atlara, uyğurdaki tatlara, oğru yavuz itlərə, quşlar kimi uçtumuz.

bədbəxçilik: suç. qutuqsuz. - suçdan qurtaran tanrı.

bədləmək: bağışlamaq.

bədrəm$_{ka}$: **badram**. **bəyrəm**. **bayram**. sevinc. əğləncə bəzim günü. könül açan yer, çağ

bədük : **böyük**. bağırlıq$_{ka}$. sayqı dəğər kişi.

bədüq$_{ka}$: (**d** < - **y**) **bəy**üq. **bay**uq. böyük. (**d** < - **z**) **bəy**üq. bulğay. ulğay.

bədüqləmək$_{ka}$: ağırlamaq. böyük saymaq.

bədümək$_{ka}$: böyümək.

bədütmək$_{ka}$: **bəy**ütmək. (**y** < > **d** < > **z**) **bay**utmaq. **böy**ütmək. böyütmək. bulğaytmaq. ulğaytmaq.

bəfalı : bəkli. ilqarlı. sözünə, əhd, peymanına bağlı. bəfalı. duranq. duran. - adaşlıq üzə durun: yoldaşlığa bəfalı.

bəxd : bol$_{ka}$. bul$_{ka}$. bulda. şans. alın yazısı. yarı. yarıq. qapı. şans. - **yarın tikilsin**: qapın bağlansın. **- bəxtli**: buldaçı. boldaçı. şanslı.

bəxşiş : ülət$_{ka}$. ehsan.

bə$_{ka}$: qoyun mələməsi bildirir.

bəq : **bək**. **bəy**. **bey**. (**baq**. **bəq**. **beq**. **boq**. **buq**. **büq)**. **1**. ilqar. əhd. peyman. - **bəki** pozuq: sözün tutmayan. **2**. hər nəyin dibi, bəki, bərki. him. pey. kök. **1**. bəy. bərk. möhkəm. **- bəq turmaq**: **bək turmaq**$_{ka}$. yerində. sağlam durmaq.

bəqəç : **bəkəç**$_{ka}$. bəycəğiz (kiçiltmə ilə birlikdə acıma, sevmə bildirən söz).

bəqənilməz : **bəğənilməz**. yavuz$_{ka}$. yafuz$_{ka}$. yava. kötü. yaman.

bəqənli : bəğənli. alqar. sevimli.

bəqənməmək: **bəğənməmək**. yermək. pisləmək. xoşlamamaq.

bəqənmiyən: **bəğənmiyən.**

- qolay bəğənmiyən: sil$_{ka.}$ silik. çimçavat. arıq tinli, məzaclı.

bəqiş : **bəkiş**. bəkit. sağış. sağman(> **saman**). sahman. düzüş. həncar.

bəqişmək: **bəkişmək**$_{ka}$. bəküşmək. gücləşmək. düzəşmək. sağnışmaq. cürləşmək

bəqit : **bəkit**. bəkiş. sağış. sağman(> **saman**). sahman. düzüş. həncar.

bəqitmək: **bəkitmək**$_{ka}$. **bəküt**mək. **pəkitmək**. (. <> **r**) bər̲kitmək. tə'kitləmək. vurqulamaq. qavalamaq. kipləmək. - sözü **bəkitmək**. - düğünü **bəkitmək**.

bəqlə : **bəklə.** güd.

bəqləmək$_{ka:}$ **bəkləmək**. **1**. bərkləmək**.** bərkləmək. bağlamaq. tutmaq. - oğru **bəkləndi**. **2**. güdmək. durmaq. qözləmək. **3**. dusdaqlamaq. həps edmək. **4**. bəy saymaq. bəy diyə ad vermək. **5**. bəyə, ərə vermək. - orağuti **bəylətdik**.

bəqlənmək: **bəklənmək**$_{ka}$. **1**. bəkişmək. qadının evlənmsi. qızın ərə qədməsi. **2**. saqlanmaq. **3**. bəyliyə, ərliyə almaq. - orağut **bəyləndi**: arvar ərə geddi.

bəqləşmək: **bəkləşmək**$_{ka}$. **1**. savaşmaq. yaxalaşmaq. qapıştmaq. **2**. güdüşmək.

bəqləyu : **bəkləyu**. umduru$_{ka}$. gözləyu. gözü yolda. - qoydu eli **umduru**.

bəqli : **bəkli**. ilqarlı. sözünə, əhd, peymanına bağlı. bəfalı.

bəqlik : **bəklik**$_{ka}$. bəyliq.

bəqmək : ilqaşmaq. sözləşmək. əhdləşmək. (> **bəy**ləşmək. **bey**ləşmək).

bəqməs : **bəkməs$_{ka}$**. **pəkməz**. quyuq sıvıq. rubb. şirə. sirə.

bəqni : **bəkni**$_{ka}$. içqi. buğda, darı, arpa kimi şeylərdən yapılan içqi. boza: quyuq içqi.

bəqrəşmək: **bəkrəşmək**$_{ka}$. pəkişmək. b**ək**rişmək.

bəqrişmək: **bəkrişmək**$_{ka}$bəklimək. p**ək**rəşmək.

bəqsik : **bəksiq**$_{ka}$. bəytəkin. bəy kimi.

bəqtur : **bəktur**. bərk dur: qeyim qal. qalın. muqavimət göstər.

bəqü : **bəkü**. bəkük. baqu. baquq. bərkik. bərki. qala. qorunmuş yer. istehkam.

bəqümək : **bəkümək**$_{ka}$. bərkişmək.

bəqüşmək: **bəküşmək**$_{ka}$. bəkişmək.

bəqüt : **bəküt**$_{ka}$. gizli. yaşut.

bəqütmək: **bəkütmək**. **bayutmaq**$_{ka}$. (**y** < > **d** < > **z**) **bədütmək**$_{ka}$. **pəkitmək**. **bəkitmək**$_{ka}$. (. <> **r**) **bərkitmək**. **bəyütmək**. **böyütmək**. **böyütmək**. bulğaytmaq. ulğaytmaq.

bəldirmək: bildirmək. bəllətmək. oxumaq. uqumaq. üzə, yuxarı çıxarmaq. anlatmaq. sindirmək. sinitmək.

bələk : **bilək**. **balaq**. ərməğan. dartıq. bəllə. bəllək. bəlgü. bala. balaq. balqu. nişan.

bələkləmək$_{ka}$: balaqlamaq. ərməğan qılmaq, vermək.

bələlmək$_{ka}$: batmaq. bir şeyə bulanmaq.

bələmək : **1**. bələmək. beşigə bağlamaq. buıaştırmaq. **2**. mələmək (qoyun).

bələrtmək : **1**. (qöz) bərətmək. alartmaq$_{ka}$. yan baxmaq. **1**. bilətmək. itimək. - **qöz bələrtmək**: yan baxmaq. alartmaq$_{ka}$

bəlgə : - **bəlgə** taxınmaq: bəçgəmlənmək$_{ka}$.

bəlgisiz : itik. atuq. itmiş.

bəlgülü : aydınonun. - bitiyi **bəlgülü**: onun yazısı aydındı.

bə'li$_{ka}$: evət$_{ka.}$ ilə**l**$_{ka}$.

bəlikləmək: ərməgün, ərməğan edmək.

bəlinğçi$_{ka}$: qorqaq.

bəlinq$_{ka:}$ bulğa. qoğa. ürkü. ürküntü. qorxu. - **bəlikçi** kişi: ürkən, qorxaq ər.

bəlqə : **bəlkə**. **1**. bəlgü$_{ka}$. nişan. im. beçkəm$_{ka}$. biçkəm. pərçəm. - bəlgə taxınmaq: **biçkəmlənmək**$_{ka}$. **2**. xiyal. **3**. (bostan) höyükü. hüyük. ürkü. oyuq$_{ka}$. mətərsək. **4**. ərki$_{ka.}$ olsunki. şayəd. olurki. ərinç$_{ka}$. əriş. ehtimal. - **ərki** gəldim.

bəlqü$_{ka}$: balqu. bəllə. bəllək. bələk. bala. balaq. nişan. əlamət. nişan. im. bəlgə.

- qut **bəlgüsü** bilik.

- **bəlqüsüz**: - qança barır **bəlqüsüz**: bəlli olmayan yana gedir.

bəlqülük$_{ka}$: **bəlli**. - **bəlqülük**$_{ka}$ nən: bəlli şey. - anın iş qılığı **bəlgülük**: onun işi **bəllidi**: açıqdı.

bəlqürmək$_{ka:}$ bəllənmək. açılmaq. meydana çıxmaq.

bəllə : bələk. bəllək. bəlgü. bala. balaq. balqu. **1**. nişan. **2**. yadigar.

bəllək : bax > **balaq**$_{ka}$. bələk. bəllə. bəlgü. bala. balaq. balqu. **1**. nişan. **2**. yadigar.

bəllətmək: bildirmək. bəldirmək. oxumaq. uqumaq. üzə, yuxarı çıxarmaq. anlatmaq. sindirmək. sinitmək.

bəlli : **bəlqülük**$_{ka}$. bəlqülük$_{ka}$. aşgar. - **bəlqülük**$_{ka}$ nən: bəlli şey. - anın iş qılığı **bəlgülük**: onun işi **bəllidi**: açıqdı.

bəlva : bulğa. balqın. balın. ürküntü. qopuş.

bən : mən. min**.**

bəndəşmək: **məndəşmək**. bənd salmaq.

bənək$_{ka}$: para. pul. çağa. çəkə. - **bənəkli**: bənli. mənğliq$_{ka}$. xallı.

bənğu acun : mənğqü ajun$_{ka}$: sonsuz dünya.

bəniz : mənğiz$_{ka.}$ məniz. üz.

bənizləmək : **mənizləmək**. bəzəmək.

bənizlənmək. mənğizlənmək$_{ka}$. gözəlləşmək. suratlanmaq. sırlanmaq. bənzinə rəng ruf gəlmək:.

bənizlənmək: mənğizlənmək$_{ka.}$ mənizlənmək. gözəlləşmək. bənzinə rəng gəlmək. üzlənib suratlanmaq.

bənq : **bənğ$_{ka.}$** vəng. vəngildəmə səsi.

bənlətmək: dənlətmək.

bənli : bənəkli. mənğli$_{ka}$. mənli. mənğliq$_{ka}$. xallı.

bəntləşmək : mənğdəşmək$_{ka}$. bənd salmaq. bət salmaq. qıl yoluşmaq.

bənzəmək: mənğzəmək$_{ka}$. mənzəmək. üsnəmək$_{ka.}$ üznəmək. oxşamaq.

bənzətmək: üsnətmək$_{ka.}$ üznətmək. oxşatmaq.

bərabər : əş. düz. bir. müsavi. - yat yağuq düz olmaz: yad yaxın bir değil.

bərələnmək : bərtinmək$_{ka.}$ yaralanmaq. zədələnmək.

bərətmək: bələrtmək (qöz). alartmaq$_{ka}$. yan baxmaq·.

bəri : bərü$_{ka}$. tərəfınə.

bəriqli : **veriqli**. vərsək. vermək istəyən.

bəriqsəmək$_{ka}$: vermək istəmək. verə yazmaq.

bərimçi$_{ka}$: borclu.

bərim$_{ka}$: **1**. verim. **2**. alınan borc. verilən nərsə.

bərimlik$_{ka:}$ verimli.

bərişmək$_{ka}$: verişmək.

bərk : batruş$_{ka}$. bətrüş. çaqruq$_{ka}$. sərt. qasınq$_{ka.}$ qadıq$_{ka}$**.** quru, sərt olan nərsə. çətin. zor. qadaq. möhkəm. qatı. quyuq. qəliz. gərik. (bərk xəmir, şorba, aş, palçıq).

bərkimək: qaturmaq$_{ka.}$ qatılaşmaq. pişmək. qurlanmaq$_{ka}$. uyuşmaq. tutmaq. yavramaq$_{ka}$. yapramaq. dikrək, sərt, qatı olmaq. tıqdamaq. tıqramaq. - yoğurt **qurlandı**.

bərkişmək: çıqrışmaq. çuqrışmaq. sərtləşmək.

bərkitmək: (**r** <>.) **bəkitmək**$_{ka}$**. bəkü**tmək. **pəkitmək**. qaqturmaq$_{ka.}$ qaldırmaq. basurmaq$_{ka.}$ bastırmaq. durdurmaq. dikətmək. saxlamaq. qüctürmək. çəkib, dartıb bərkitmək.

bərkləmək$_{ka}$: qorumaq. saxlamaq.

bərqə$_{ka}$: **bərkə**. **bərkəm**. **baraq**. (< **bar**. **var**: yük). döğməyə, ıtməyə (itələməyə) soxmağa yarar arac, iş. qamçı. qamıç.

bərq$_{ka}$: **bərk**. qorunmuş. bək.

bərqlətmək$_{ka}$: **bərklətmək**$_{ka}$. sağlamaq. bəkləmək. qorutmaq.

bərmək$_{ka:}$ vermək. barmaq.

bərtinmək$_{ka:}$ bərələnmək. yaralanmaq. zədələnmək.

bərtişmək$_{ka:}$ **1**. sərtləşmək. **2**. birbirini qırıb kəsmək, yaralamaq.

bərtlənmək$_{ka}$: çulqalanmaq. bərtülənmək.

bərtmək$_{ka}$: bərələmək. açmaq. yaralamaq. - pıçaq əlimi **bərtti**: yaraladı.

bərtü$_{ka}$: çulqa. arxalıq.

bərü$_{ka}$: bəri. tərəfinə.

bəs : basa$_{ka.}$ bas. sonra. (> **pəs$_{fars}$**).

bəsbəl$_{ka:}$ < met > **sapbal**. **balsap**. **sapdal**. **dalsap**. **saplaq**. bir tel sap. söküm. - bir **bəsbəl**$_{ka}$ iplik: bir söküm iplik.

bəsili : bəsli. becəri. əkdi. tərbiyəli. - **əkdi** uşaq.

bəsilmək: əkdilmək$_{ka.}$ əkilmək. becərilmək.

bəsin : gücərti. vitamin. (bəslənmək) (# **basın**: təzif. - yeməməkdən basındıq).

bəsləmək: əktüləmək. iktüləmək$_{ka.}$

bəslənmək: - vücuda yararlı bəsləyici bulmaq·: **çivqünlənmək**$_{ka}$.

bəsləyici: çivgin$_{ka}$. - **bəsləyici** yemək: çivqin aş$_{ka}$

bəsli : bəsili. becəri. əkdi. tərbiyəli. - **əkdi** uşaq.

bəstik : **pistik**$_{ka}$. **bistiq**. **pıstıq**. **püstə**. **1**. yumaq. atılmış pambıq süməği. **2**. fitil. piltə.

bət : **1**. sıxlığı, qoyuluğu, tütlüyü, bərkliyi, çoxluğu göstərən söz. cik. - **bət** üzüm gətirib bu il. - bət adamdır. **2**. tilif. cibrə. bir şeyin suyu, suyuqluğu çəkilirkən qalan köçəyi. çöküntü. - **üzüm** bəti. - çuğundur **bəti**. **3**. pat. ağır nərsənin düşməsindən, bir şeyin pis yıxılmasından çıxan gurultu. - **pat** düşdü. **4**. şəb. çab. tez. iti. bət gəlisən nə xəbərdi. - **bət** gələn **bət** gedir.

- bət salmaq : yıplamaq$_{ka.}$ ipləmək**.** iplə qıl aldırmaq·.

bətərləşmək: ağırlaşmaq. yavamaq. tərsinmək$_{ka.}$ tərslənmək. azmaq. - yara **tərsindi**. - kəsəl **tərsindi**.

bətrüş : **batruş**$_{ka}$. **bartuş**. **1**. quyuq. bərk. qəliz. gərik. (bərk xəmir, şorba, aş, palçıq). **2**. bulanıq. bulğan. - batruş suv. bulanıq, laylı, zığlı su.

bəyəndiri: sevdiri. tə'rif.

bəyəndirmək: sevmək$_{ka}$. tə'rifləmək.

bəyləşmək: **beyləşmək**. bəqmək. ilqaşmaq. sözləşmək. əhdləşmək.

bəyrəm$_{ka}$: bayram. badram. bədrəm. bəzrəm.

bəyük : böyük. bəzük. (**d** < > **y** < > **z**) bədüq. bayuq. bulğay. ulğay.

bəyütmək: (**y** < > **d** < > **z**) bədütmək$_{ka}$. bayutmaq. böyütmək. böyütmək. bulğaytmaq. ulğaytmaq.

bəyzək : bəzək$_{ka}$. naxış.

bəyzəmək$_{ka}$: bəzəmək. naxışlamaq.

bəyzənmək : bəzəlmək. süslənmək. naxışlanmaq.

bəz : **bəz**$_{ka}$ **bez**. ətlə dəri arasında bulunan bez.

bəzək$_{ka}$: bəyzək. naxış. - **bəzizlik ev**$_{ka}$: bəzəkli, süslü ev.

bəzəlmək: bəyzanmaq. süslənmək. naxışlanmaq.

bəzəmək$_{ka}$: bənizləmək. mənizləmək. bəyzəmək. naxışlamaq.

bəzənmək$_{ka}$: (**n** <> **l**) bəzəlmək. süslənmək. naxışlanmaq. bəzənmək. qoyanmaq. qoyunmaq. qozanmaq$_{ka.}$ süslənmək. - **bəzənib qozanmaq**.

bəzətən : **bəzətqən**$_{8}$**.**

bəzətmək$_{ka}$: süslətmək.

bəzinç$_{ka}$: yumağ.

bəzirqan: sarıt$_{ka.}$ satır. tacir. təcimən. satıcı.

bəzişmək$_{ka}$: bəzənmək. süslənmək.

bəzitqən$_{ka}$: bezitən.

bəzitmək$_{ka}$: titrətmək. üşütmək. sarsıtmaq. təprətmək.

bəzük : (**z** < > **y** <> **d**) **bəyük**. bədüq$_{ka}$. böyük. bayuq. bulğay. ulğay.

bıçaq : biçək$_{ka}$. pıçaq.

bıçaqlamaq: biçəkləmək**.**

bıçası : biçəcək. kəsirqic.

bıçıl : bəcəl$_{ka}$. biçilmiş. iğdiş. əxdə. xədim

bıçılmaq : kəsilmək.

bıçılqan : bıçılqın. bıçqıl. çat. çatlaq. yarıq.

bıçılqın : bıçılqan. bıçqıl$_{ka}$**.** çat. çatlaq. yarıq.

bıçınmaq : biçinmək. doğrunmaq.

bıçıq : **baçıq**. **bəçik**. **bıçğaş.** (1 < **biç**. söz biçmək. kəsmək. 2 < $_{met}$ > **bağ**. bağaç. bağıc. bağlantı) neçə kimsə, ölkə arasında yapılan and, bağlantı. sözləşmə. və'də. əhd.

bıçış : biçiş.

bıçışmaq : **biçişmək**. kəsişmək. ayrışmaq.

bıçma : **biçmə**. kəsilmiş. - biçmə yorıncqa$_{ka}$: biçilmiş yonca.

bıçmaq : biçmək. kəsmək. kəstirmək.

bıçqaş : **bıçğaş**. bəçik. bıçıq. bağaç. bağıc. bağlantı. sözləşmə. ant. və'də. əhd.

bıçqəmləmək$_{ka}$. **biçkəmləmək$_{ka}$**: **bəçkəmləmək$_{ka}$**: **pərçəmləmək**.

bıçqılamaq: biçmək. pozmaq: irpəmək**.**

bıçqıl$_{ka}$: çat. çatlaq. bıçılqın. bıçılqan. yarıq.

bıçqu : bıçqı. bıçaq.

bıçquç$_{ka}$: qırqı. qıftu$_{ka}$. qıpıt. sındı. sındu$_{ka}$. qəyçi. qayçı.

bıçturmaq: biçtirmək. kəstirmək.

bıçuq$_{ka}$: buçuq$_{ka}$. bölək. bölük. puçuq. parsa. parça. kəsik. parçalanmış hər şəyin yarısı. kəsək. kəsik. kəs$_{ka}$. çart$_{ka}$. parça. parsa. tikə. tikim. tikü$_{ka}$. tikir.

bıdıq : bıyıq.

bıldır$_{ka}$: bax > **baldır**. bildir. keçən yıl.

bıqın : böğür. boş böğür.

bıqmaq : bezmək. turulmaq$_{ka}$. durulmaq. yorulmaq. tuqunmaq. tükünmək. usanmaq. büşmək. bezmək. ulınmaq$_{ka.}$ ulunmaq. usanmaq. qıvrılmaq. doymaq. - işdən büşüb dardıq: bezdik.

bıqrıq : **buğrıl. bıqrıl.** tıxa basa dolu olan.

bıqtırmaq : todqurmaq$_{ka}$. doyurmaq. tuqurmaq.

bırıtmaq$_{ka}$: burutmaq$_{ka}$. iylətmək. əldən qoymaq.

bırqıq : **bırqığ**. atın, eşşəyin gənizdən soluqlanıb, səs çıxarması. fışqırıq. - at bırqığı.

bırqırmaq : xomurdanmaq. gənizdən səs çıxarmaq.

bıruq : (< **buyruq**). təşrifatçı. böyüklər qatında, görüşçülərin görəvinə, aşamına, qatına görə yer göstərən kişinin adı.

bızıq : (**z** <> **y**) **bıyıq**. bığ. buğ. mıyıq$_{6}$.

bi : **bi**$_{ka}$. **böq**. **böy**. **1**. böy deyilən böc**ək** - **2**. qısraq.

bibər : burç. murç$_{ka}$.

bic : əsli bəlirsiz. satır$_{ka}$. (sövmə sözü). satır$_{ka}$. həramzada. götvərən. dibiz.

biçək$_{ka}$: bıçaq.

biçəkləmək$_{ka}$: bıçaqlamaq. bıçaqla vurmaq.

biçəklənmək$_{ka}$: bıçaq yiyəsi olmaq.

biçik : tüpi. turpılmış. kəsik. qıssa. güdə.

biçilmək: irpəlmək$_{ka.}$ yarılmaq. tarılmaq. dərilmək. vurulmaq. <> urulmaq <> orulmaq$_{ka}$.

biçilmək: orulmaq$_{ka}$

biçilmiş : bəcəl$_{ka}$. bıçıl. iğdiş. əxdə. xədim

biçim$_{ka}$: qırtış$_{ka.}$ kəsim. dilim. - bir **biçim** qoğun.

biçin : **1**. örtgün$_{ka}$. örqütün. dərim. örtəm. ürtəm. ütrəm. xərmən. **2**. meymun.

biçiş : **bıçış.** (böyüklərdən gələn) xələd.

biçişmək: **bıçışmaq. 1**. kəsişmək. ayrışmaq. **2**. büzüşmək$_{ka}$. ayrışmaq. **3**. pozuşmaq.

biçkəmləmək$_{ka}$: **bəçkəmləmək$_{ka}$**: **bıçkəmləmək$_{ka}$**. **pərçəmləmək**.

biçkəmləmək$_{ka}$: pərçəmləmək. nişalamaq.

biçmək : irpəmək$_{ka.}$ yırpamaq. yarpamaq. qırmaq. pozmaq.

biçqas : **biçğas**. əhd. peyman. misaqi milli.

biçqəmlənmək$_{ka}$: **biçkəmlənmək**$_{ka}$. bir iz olaraq(ləçək. pərçəm, qolbağ) taxınmaq.

biçqüləmək : qıftulamaq$_{ka}$. sındılamaq. qırqılamaq. qırpımaq. qırpıtlamaq. qayçılamaq. sındılamaq$_{ka}$. qayçılamaq. qıftulamaq$_{ka}$. qırqılamaq. qırpımaq. qırpıtlamaq.

bil : tanı. - yolu bil ged. - onu bil çağır. - onu bilisən: onu tanısan. - biləmmədimki odu: tanıyanmadım ki odu. - onun ölüsün bilmirsən, nəyə götürüsən: tanımamış ölüyə nədən rəhmət oxuyursan.

bildiri : bilingə. aqahi.

bildirmək: **1**. bəllətmək. bəldirmək. oxumaq. uqumaq. üzə, yuxarı çıxarmaq. anlatmaq. sindirmək. sinitmək. **2**. öğrətmək. - bu işi sənə **bildirən** mənəm.

bildüzmək$_{ka}$: bildirmək.

biləgü$_{ka:}$ biləği. bilöv.

bilə$_{ka}$: ilə. bərabər.

biləkka : **bilgəli**. 1. güc. quvvət. - **biləyi**: qüclü quvvətli. - **biləkli** güclü kişi. - **biləyin** varsa, **biliksiz** qalma: gücün (çıxar, qabiləyət gücün) varsa bilik qazan. - düzlüyə, **biləkdə** gərək, **bilikdə** gərək. - biləkli olduğundan bilikli ol. - **biləyin** on olunca, biliyin bir olsun. - ətəyivi biləyivi **sıtğa** batmasın: qətdə. - gücəndi **biləyim**. 2. **balaq**. **bələk**. ərməğan. dartıq. .

biləmək$_{ka}$: **bilqəmək.** bəlgümək. balqumaq. ititmək. açmaq. sulamaq. - o diş **bilədi**.

biləmsinmək$_{ka}$: bilər görünmək.

bilənka : 1. qədirşünas. - **bilən** kişi. 2. uca. ulac. alça. incə. uslu. yüküm.

bilənməkka: tişəlmək$_{ka}$. dişlənmək. dişənmək.

bilətmək$_{ka}$: bələrtmək. yanutmaq$_{ka.}$ yıtıtmaq$_{ka}$. yitirtmək. ititmək. qayratmaq. qayraq, bilöv sürtüb ititmək. yanutmaq. - pıçaq **bilətmək**.

biləzüq$_{ka}$: bllәziq.

biləzüqlənmək$_{ka}$: bllәziq taxınmaq.

bilgə : bilgin. bükü$_{ka}$. arif - bilgə **ərik** bulursan, baxqıl ona tabaru: bilən, danışman kişi tapsan, ona sarı diqqət ed, yönəl. - alp çərikdə, **bilgə** dirikdə. - **bilgə** ərən savların, alqıl öğüd: bilən kişilərin sözlərindən öğüt al. - **bilgə** əri əyku tutub, sözin işit, artamını öqrənibən işqə sürə: dalını düşünüb işə bağla.

bilgedmək$_{ka}$: ağıllanmaq.

bilgələnmək$_{ka}$: ağıllanmaq. ağıllaşmaq.

bilgəzka : bilgili. bilən.

bilib dur: bil gilən. aqah ol.

biligin$_{ka}$: bilgi ilə.

bilik bilin: bilik öğrənin.

bilik : **bilgi**. 1. hikmət. 2. ağıl. us.

- düzlüyə biləkdə, bilikdə gərək.
- biləkli olduğundan bilikli ol.
- biləyin on olunca, **biliyin** bir olsun.
- **bilik** kişi ara ülüklü. bilik kişi ara bölünmüş.
- qut bəlgüsü **bilik.**
- gəngəşli **bilik** utraşur, gəngəşsiz bilik opraşur.
- **bilikligin** uluğluqa dəğdim.

biliklik$_{ka}$: bilgili.

biliksəmək$_{ka}$: ağıllanmaq. ağıl qazanmaq.

biliksizliq$_{ka}$: bilgisizliq.

bilimsinmək$_{ka}$: bilir görünmək.

bilin : aqah olun.

bilinçək$_{ka:}$ bilinçək nənğ. itik nəyin tapılması.

bilingə : bildiri. aqahi.

bilinmək$_{ka}$: 1. e'tiraf edmək. iqrar edmək. - ər yazuğun **bilindi**. 2. kəndi işini bilmək.

biliq : - gəngəşli **bilik** artamaz.

biliş$_{ka}$: 1. tanış. şinaxt. mə'rifət. 1. bilən. bilici.

bilişmək$_{ka}$: tanışmaq. aşnaşmaq. aşna olmaq. - ortaq olub **bilişdik**: bir araya gəlib tanışdıq. - nəlük anla bilişdim: necə, niyə onla tanışdım. - çox keçmişdən mən onla **bilişdim**.

bilkənmək: ağıllanmaq.

bilməcə : tapzuğ$_{ka}$. təpzük. tapızğu. tapızğuq. tapışmaq$_{6}$. tapmaca2. sınama. - **bilməcə söyləmək**: tabızamaq. sormaq. - tabuzmaq$_{ka}$. tapuzmaq$_{ka}$. tabarumaq$_{ka}$.

bilmədük$_{ka:}$ tanınmayan. bilinməyən. tanınmamış. bilinməmiş.

bilmək : - **bilik bilin**: bilik (hikmət. mərfət. ağıl) öğrənin.

bilmiş$_{ka}$: bilinmiş. tanınmış. bilinən tanınan.

bilqə$_{ka}$: bilgə. hakim. ağıllı. bilgin. alim. - **bilgə bək**: bilgin. ünlü kişi ağıllı. hakim bəy. buğu.

bilqəs : **bilkəs**. bilqeys. ağıllı. əkəç.

bilqətmək$_{ka}$: ağıllanmaq.

bilqeys : < **bilkəs**. bilkəzik. ağıllı. əkçə. əkəç.

bilqəzik : **bilkəzik**. bilqeys. bilkəs. ağıllı. əkçə.

bilqimsinmək$_{ka}$: ağıllı. kəndini ağıllı göstərmək.

bilsikmək$_{ka}$: bilinmək. açılmaq. ifşa olmaq.

biltürmək$_{ka}$: öqrətmək. bildirmək.

bilur : **bullur**. artın. tənik. açıq, duru, saydamlı nərsə.

binilmək: münülmək$_{ka}$.

binmək : münmək$_{ka.}$

bir : düz. əş. müsavi. bərabər. fərd. tək.

- yat yağuq düz olmaz: yad yaxın bir değil.

- **bir çöp**: bir az.

- **bir az**. qıpa$_{ka.}$ az.

- **qıpa** keçdi.

- bir **çöp** aş yedim.

- bir tüq: bir yığın. bir çox.

- bir köç qoyqıl: bir az **dözginən**.

- birin birin: birər birər.

- birlə: ilə. bərabər.

- birinç: birinci.

birçək : bürçək$_{ka.}$

birçəklənmək: bürçəklənmək$_{ka}$. pərçəm, kakil, yal çıxarmaq.

birdən : soxur. soxru. soxulub. xafa xafdan.

birgə : **birkə**. yığlışma. - **suv tirqəşi**: su birgəsi. dərə qollarının suyunun toplandığı yer.

birinc : qurunc$_{6}$. düyü.

birkə : turqun$_{ka}$. durqun su.

birləşmək: əkləşmək. müttəhidləşmək.

birlik : müfrəd. təklik. - birlik ad: müfrəd ad.

birtəm$_{ka}$: **birdəm**. bir dəfəlik. uzun sürə. - **birtəm** gedmə ha. - **dirdəmlik** qırılıb. - **birtəmlik** gəldim.

birt$_{ka}$: **virt**. **verd**. vergi. dölәv$_{6}$. maliyat.

bistiq : bax > **bəstik**.

bit : **bit$_{ka.}$** yaz. - **bitin**: yazıl. - **bitit**: yazdır. yazır.

bitərmək$_{ka}$: sabit edmək. güvah olmaq. təsdiqləmək.

biti : göydən enən kitaplardan hər biri.

bitidəci$_{ka:}$ yazdırıcı.

bitigü : yazıya bağlı olan hər nə (qələm. kağız. davat)

bitik$_{ka}$: yazı. yazıv. yazma. - onun bitiyi bəlgülü: onun yazısı aydındı.

bitilgən : **bitqilgən.** yazılan. səbt olunan.

bitilmək : yazılmaq.

bitímək : yazmaq.

bitinmək : yazılmaq. yazınmaq. yazıçılıq edmək.

bitiq : **bittik**. **bitkit**. 1. kitap. məktup. yazma. yazı. yazış. yazılı şey. qâğıt. **- ay bitiqi**: aylıq dəftər. - il bitiyi: böyük dəfdər. **- bitiklik$_{ka}$**: yazı yazılacaq nəsnə yiyəsi. 2. bitgil. tikmə. saf. təx. pəx. - **bitikdaş**: tikmədaş: **qaya**. 3. büyü. ovsun. üfrüq.

bitiqdaş : **bitikdaş**. tuqdaş (tuq - daş). tuqadaş (tuqa - daş) tikmədaş(tikmə - daş). qurum. təxtəsəng.

bitiqqaya: **bitikqaya**. tikmədaş. bitikdaş. qurum. təxtəsəng.

bitirən : dəgirən. əriştirən. çatdıran.

bitirmək : **bütürmək$_{ka}$**. **pötürmək.** 1. tükətmək. tükətmək**.** 2. yetiştirmək. yönəltmək. öndürmək$_{ka}$. 3. doğrutmaq. düzəltmək. 4. pişirmək. gəlişdirmək. osmaq. ozmaq. osturmaq. ozdurmaq. - işlər **osub** keçürgən: işlər düzüb keçirdən. 5. yaşartmaq$_{ka.}$ yəşərtmək. gücərtmək. 6. sağlam duruma qoymaq. 7. ispat edmək.

bitiş : 1. ətək. oğruq$_{ka}$. uğruq. ovruq. 2. qırış. çıxış. son.

bitişmək : 1. iqrar edişmək. - olar ikkisi **bitişdilər**. 2. yazışmaq. 3. bütsəmək. yaranın düzəlməsi. 4. ulaşmaq$_{ka.}$

bititmiş$_{ka}$: yazılmış. - **bititmiş** bitiq. yazılmış yazı, əsər.

bititqu$_{ka}$: yazdıracaq. - **bitíq bititqu** oruğ: yazı' yazdıracaq yer.

bititqüçi$_{ka}$: yazdırıcı.

bitləmək: (< **bit** + **laq** + lamaq: bitdən ayırmaq)

bitləmək$_{ka}$: (**bit** + **laq**: biti yoxlamaq, ayırmaq) bit aramaq.

bitmək : 1. alqınmaq$_{ka.}$ tükəmək$_{ka}$. tükənmək. yox olmaq. məhvolmaq. 2. sabit olmaq. 3. yetmək. kifayət edmək. 4. uyuşmaq$_{ka.}$ yoğruşmaq. (maya) tutmaq. dolmaşmaq.

bitmiş : (yara) bütmiş. yetmiş$_{ka}$. qapanmış. iyiləşmiş.

bitrik$_{ka}$: **pıtrıq**. 1. fıstıq. buturqaq. puturqaq. 2. qadınların oğrət yerində bulunan dilcik. dıllaq.

bitrimək: yazıb, təsdiqləmək. tanıq vermək.

biz : miz$_{ka}$

bizi : miz. əkməğin üzərində yanmış ləkələr.

bizov : <> **bozağu**(**zağu** $_{<\ met\ >}$ **ğasu**). **boğasu**. boğa olası, olmaq üzrə olan boğacıq.

bod : (**y** <> **z** <> **d**) **boy**. **boz**. 1. qamət. 2. toy quşu.

bodluq$_{ka}$: (**y** <> **z** <> **d**) **boyluq$_{ka}$**. boylu. bozluq. boylu. - **dal boylu**: dik uca boylu olan.

boduq$_{ka}$: (**y** <> **z** <> **d**) **boya**. **boza**. **boyuq**. rəng. qına. xına.

bodumaq$_{ka:}$ boyamaq. yapıştırmaq.

bodun : budun. boy$_{ka}$. bozun. boyun. boyluq. tuy$_{ka}$. tuz$_{ka}$. el. xalq. millət. qovm. kütlə.

- boyun ikindi: xalq birbirini.

- **budun** başqanı. - **bodun lu buqunlu**. **boyunlu buxunlu**: elli günlü. evli eşikli.

- bodun **sezrəşdi**: xalq dağılışdı.

- **boyun** tərildi: millət yığışdı.

- qadın **boyun**, tutcu dərlgən: qadın xəyləyi, həmişə bir yerə yığılır. - yazsın çavın **boyunğa**: yaysın səsin ellərə.

- **boyun** ikindi: xalq birbirini.

bodunlu: boyunlu. boylu. elli.

bodur : taquzmıq$_{ka}$. taqzuq. toqsıq. ətinə dolqun.

boq : **boq**$_{ka}$ boğ. buxca. heybə. bəsdə.

boqac : **buğac**. **bükəş**. **1**. buruşuq, çətin olan nərsə. zorluq. pıroblem. - **boğac art**: zor keçitli dağ sırtı. **2**. qablama. qazan. - **aşıc boğac**. **3**. bardaq. **4**. hər çeşit qab. çömlək. - aşıc **boğac**: yemək qabı. - su **boğac**. - əkmək **boğac**.

boqadmaq: **boğatmaq**$_{ka}$. (**t** <> **z**). **boqazmaq**$_{ka}$. boğalanmaq. boğa olmaq.

boqarmaq$_{ka}$: ağaca kərtik kərtmək. doğramaq. ağacı girdə girdə bölmək.

boqatmaq$_{ka}$: (**t** <> **z**). **boqazmaq**$_{ka}$. boqadmaq. boğalanmaq. boğa olmaq. - bizov **boğatdı**: böyüyüb boğa oldu.

boqaymaq: boğaymaq. boğalaşmaq. ərcişmək.

boqaz$_{ka}$: boğuz.

boqazlanacaq: kəsiləcək.

boqazmaq$_{ka:}$ (**z** <> **t**). **boqatmaq**$_{ka}$. **boqadmaq**. boğalanmaq. boğa olmaq.

boqım$_{ka}$: boğum. boqum. boğun.

boqlamaq: **1**. **poxlamaq**. pisləmək. **2**. boğlamaq. buxcalamaq. baqlamaq.

boqlanmaq: **boğlanmaq.** boğulmaq. buxcalanmaq. bağlanmaq.

boqmaq : **1**. düğmə. - **boğmaqlamaq**: düğmələmək. **2**. boyunluq. boğunluq. boyunbağı. boyun umar$_{6}$.

boqnaqlanmaq: boğmaqlalmaq. boğum boğum olmaq. düğmələnmək. - bulut **boqnaqlandı**: parça parça oldu.

boqra : hər heyvanın ayqırı. boğa, dəvə ayqırı.

boqrad : **boğrad**. boğurda$_{ka}$. bükət. bükük, boğuq qıvrıq nərsə.

boqramaq$_{ka}$: **boğramaq**$_{ka}$. **boğarmaq**. nərsədə kərtik, iz açmaqla, bir bağlamaqla im qoymaq, bəllətmək. doğramaq. boğumlamaq.

boqrıl : bax > **boğrul$_{ka}$.**

boqrul : **boğrul**. **boğrıl$_{ka}$**. boyunluq. boyunu tuğlu. - **boğrul** qoyun: boynu başqa boyada olan qoyun.

boqruşmaq$_{ka}$: **boğruşmaq**. 1. yarışmaq. 2. doğramaq. yontmaq. bölmək. qırmaq. parçalamaq.

boqsuq$_{ka}$: **boxsuq**$_{ka.}$ **boqsuq**. **boğsuq**. **büksük**. qulların (kölələrin) boyunlarına keçirilən lâlə, buxov, halqa. zəncir.

boqsuqlanmaq$_{ka}$: **boxsuqlanmaq**$_{ka}$. əli boynuna bağlanmaq, əli boynunda qalmaq. - boşlağlansa, **boxsuqlanar**: heç kimin sözün dinləməyən, əli boynunda qalır.

boqtay$_{ka:}$ **boxtay**$_{ka}$. boxtuy. büktay. buxca. (< **buk**. **bük**). heybə.

boqturmaq$_{ka}$: boğdurmaq.

yoq : **yox. nə** < met > **ən**$_{ka.}$ dəğil. təkül. daq. daq$_{ka}$. - **yox yox**: nə nə: ən ən: - **yox edmək**: qidərmək. qitərmək$_{ka.}$ qutarmaq. qaldırmaq. qavşatmaq: gəvşətmək. kovşatmaq. boşaltmaq. ayırmaq. açmaq. qaçıtmaq. qaçırtmaq. sıçratmaq. qəbətmək. öldürmək. - nabud edmək. məhv edmək. gedmək$_{ka.}$ qitmək. yana, qırağa çəkilmək. aradan qalxmaq. - **yox** olmaq: alqınmaq$_{ka.}$ bitmək. tükənmək. məhvolmaq.

yoq : **yoğ**$_{ka.}$ rəhmət. ehsan. yas, ölü gömüləsindən sonra üç, yədi günə qədər verilən yemək.

yoqa : **yoğa**$_{ka}$. 1. qalxış. çıxış. siud. - **yoqar** qopub səkrəlim: yuxarı qalxıb atılalım. 1. **yoxa**. dəğərsiz. puç. heç. - mən verdiyim **yoxa** saydın.

yoqacıq : **yoxacıq**. yalqaq, dəricik, qabıq. qandır$_{ka}$. zar. pöz. car. çar.

yoqaç : **yoğaç.** qıyı. çayın iki yanından biri. - **yoğacda** oturdum. - **yoğac** keçdim: çayın o linə keçdim.

yoqadmaq : yox olmaq.

yoqaq : **yoğaq**. qaz. - axtırur gözüm yolaq \\ tuşqılır ördək **yoğaq**.

yoqalmaq: **yoxalmaq**. yitmək. yox olmaq. - **sağ** itirmək.

yoqar : yuxarı. yoqaru. yuqaru. - **yoqar** qopub səkrəlim: yuxarı qalxıb atılalım.

yoqar : yoqaru$_{ka.}$ yuqarı. yuqaru.

yoqaru$_{ka}$: yuqarı. yoqar. yuqaru.

yoqaru$_{ka:}$ yuqarı. yoqar. yuqaru.

yoqaymaq: yoxolmaq.

yoqazmaq : yoxazmaq. yox olmaq. - yalqun oğlu **yoxazır**, iyi adı qalır. - yalınquq oğlı **yoqazur**, əyku adı qalır.

yoqdu$_{ka}$: dəvənin çənəsi altındaki uzun tüklər - cuqdu. yoqru. yoqruy. yuqdu.

yoqdurmaq : **yoxdurmaq**. yozturmaq$_{ka}$ (**z** <> **t**) yotturmaq$_{ka}$. yoddurmaq. sildirmək. pozdurmaq.

yoq$_{ka}$: **yox**. (**yok. yox # yük**).

yoqlamaq: **yoğlamaq**$_{ka}$. **1**. çıxmaq. qalxmaq. - yuxarı **yoqla**. **2**. durquzmaq. qılınmaq. edinmək. qurunmaq. - törə yoqlandı. **3**. ölü üçün yemək vermək. **4**. yüksəlmək. çıxmaq.

yoqlatmaq: yuğlatmaq. yüksəltmək. dağa çıxartmaq.

yoqluq : **yoxluq**. kəslik. qıtlıq.

yoqmaq$_{ka}$: **yoğmaq**$_{ka}$. silmək. pozmaq. məhv edmək.

yoqrı : **yoğrı**$_{ka.}$ çanaq.

yoqruq : **yoğruq**. hazırlıq.

yoqrulmaq: **yoğrulmaq**. qalanmaq. yığışmaq. - palçıq balıq **yoğrulur**, çıqay yavuz **yığrılır**: kötüləşür.

yoqrulmaq$_{ka}$: yoğrulmaq.

yoqrum$_{ka}$: bir dəfədə yoğrulacaq qədər olan·.

yoqruş : **yoğruş**. xandan bir dərcə aşağı olan başçı. nayib rəyis.

yoqruşmaq: **yoğruşmaq**. **1**. bitmək. uyuşmaq$_{ka.}$ (maya) tutmaq. dolmaşmaq. **2**. qurumaq. qaqurmaq. - **suyuq** ağızda yoğruşdu: ağzımın suyu qurudu, qaqurdu. **3**. yığışıb qurumaq. **-** ağız suyu. **süzük. suzuq**. - **süzüq** ağızda yoğruşdu: ağız suyu qurudu. **4**. yoğrulmaq. yoğurmaq.

yoqrutmaq: **yoğrutmaq**. yoğurmaq. qəlizlətmək. qavama gətirmək.

yoqsamaq$_{ka}$: **yoğsamaq**$_{ka.}$ **yoxsamaq**$_{ka.}$ silmək istəmək. yüngüllətib, boşaltmaq.

yoqsul : **yoxsul**. (# **yüksül**). çıqan. çıqay$_{ka}$. qırıl. qırqıl. kasıb. solamuq$_{ka}$. solaq. çapaqay$_{6}$. yarqıl. yarlıq$_{ka}$. kasıb. yazıq.

yoqsullaşmaq: qırılmaq$_{ka}$.

yoqsuluyam: **yoxsuluyam**. yosuluban.

yoqturmaq$_{ka}$: **yoğturmaq$_{ka}$** yuğturmaq$_{ka}$. sürdürmək. bulaştırmaq.

yoqulmaq: **yoğulmaq**. yoğunmaq. sıvanmaq. yuqulmaq$_{ka.}$ bulaşmaq. sürtülmək.

yoqun$_{ka}$: yoğun. şişqin. qalın.

yoqunmaq: **yoğunmaq**. yoğulmaq. sıvanmaq. yuqulmaq$_{ka.}$ bulaşmaq. sürtülmək.

yoqur : **yoğur**. xəmir.

yoqurqan: **yoğurqan**$_{ka.}$ yorqan. qalın yoğun örtük. - üzüvə yorqan **aşıl**: çək. - o **yorqan** büründü. - **yoqurqandan** artuq ayaq ayaq kösülsə üşüyür.

yoqurqanmaq: **yoğurqanmaq**. **yörgənmək**. **yörənmək**. dolanmaq. döğrənmək. çevrənmək. qurşanmaq.

yoqurquc : **yoğurquc**. (**yoğur** + **aç** ?). yoğrulmuş, qatı nərsəni *açan*, sərən oxlaq.

yoqurmaq: **yoğurmaq**.

yoqurmaq: **yoğurmaq**. **yuğurmaq**. 1. yoğrutmaq. qəlizlətmək. qavama gətirmək. 2. bulamaq. - onun **igi** (kəsəli)mənə yoğurdu. - əlimə yağ **yoqurdu**. 3. hazırlamaq. bir durumu, qoşulu pişirmək. salıb çıxmaq. - bu işi **yoğurun**. - **yoğrulmamış** xəmirdən çörək çıxmaz. 4. qatılaştırmaq. qatıtmaq. 5. uyutmaq$_{ka.}$ peynir yapmaq.

yoqurmuş: **yoğurmuş.** xəmir olmuş. - **yoğurmuş** un suvışdı: xəmir olmuş un suyuqlaşdı.

yoqurt$_{ka}$: yoğurt.

yoqurtmaq$_{ka}$: **yoğurtmaq** (< **yoq**. **yuq**. **yük**). 1. una su qatıb yoğunlatmaq, qalınlatmaq. (un kimi) açıq, yumşaq şeyi qəlizlətmək. **yoğurtmaq**:. **yorıtmaq**$_{ka}$. **yürütmək**. **yeritmək**. 2. açmaq. sürtmək. sürdürmək. - onun sözlərinə **yoğurtan** gərək. 3. yoğunlaşdırmaq. su qatıb unu xəmir eləmək. 5. qalınlatıb yoğunlatmaq. qatılamaq.

yoquş :

yoquş : **yoğuş**. **yoxuş**. **yoq. yoğ.** 1. yardım. kömək. 2. qalın. cehiz kimi olan kömək. - **yoğuşlu** gəlin, keveyi, yumşaq bulur. 3. ehsan.

- **yoquş** yer: yoq yer$_{ka}$.

- **iniş yoquş**: art yış$_{ka}$.

yoquş : **yüfüş$_{ka.}$** hısımların (çox kərə qərdəğə qoyulan gəlini çəyiz yiyəsi edmək üzərə) paltar, mal ilə yardımlaşması.

yol : 1. çara. açar. - ovçu neçə **al** bilsə, azıq onca **yol** bilir. - yol kəsən. haydut. qarqman: sərkər$_{ka}$. sərkar. oğru. - **yol yarasın**: yolun açıq, iyi, yaxcı, rahat olsun. **- yol açan**: sökmən$_{ka}$. yiğitlərə verilən unqun. yağını sökən. - **yoldan çıxaran**: azdıran. azıtqan$_{ka}$. ayıtqan. adıtqan. **- yola gedən**: qoşulan. qatılan. yol gedən. 2. müsafirət. səfər. - mənə **yol** çıxdı. - tələsik **yola** çıqma. 3. keçir. çara. 4. yul$_{ka}$. qaynaq. çay. pınar. su pınarı, qaynağı, qözü.

- **yolda rastlamaq**: yolqırmaq$_{ka.}$

yola : sələk. yumuş. ulaq. sam. saf. **- yola qılavuzlamaq**: qondqarmaq$_{ka}$. qöndqürmək$_{ka.}$ qondarmaq. doğrultmaq. düzəltmək. tikmək **- yola gəlmək**: qonmaq. ramlaşmaq. - tosun at **qondu**.

yolaqçı : **yolağçı**. burunqud. öndə gedən. kosan. öndər. bakan.

yolaq$_{ka}$: 1. bulaq. qolaq. suyun kiçik qolları. çeşmə. - axtırur gözüm **yolaq** \\ tuşqılır ördək yoğaq. 2. cığır. cılqa. qırlardaki kiçik yol. yol yol çizgili olan hər şey. - **yolaq barçın**. yolaq parça. yol yol çizgiləri olan.

- axtırur gözüm yolaq, tuşqılır ördək yuğaq.

yolaq$_{ka}$: **yolaq**$_{ka}$bulaq. kiçik kiçik birçox su pınarlar. **- yol yolaq**.

yolaqlanmaq$_{ka}$: çeşməli, bulaqlanmış yer. pınarlanmaq. pınarlar çoxalmaq.

yolaqlı : çeşməli, bulaqlı yer.

yolaqu$_{ka}$: **yolağu**. **yoluğu**. yoluq. dəstək. dayaq.

yolalı$_{ka}$: dayanmış. söykənmiş.

yolamaq$_{ka}$: dayanmaq. dirənmək. - duvara **yola**.

yolçu$_{2}$: **1**. umduc. umdac. uman. dilənçi. **2**. yorçı$_{ka.}$ usta qılavuz. **3**. alqın. yılqın. ılqın ilgin. qonuq. müsafir.

yoldaş : yorış. könəş. könüldəş. sırdaş. ılış. iliş. dosd. qoşqu. qoşuq. həmkar. bir birinə qoşulan. : tuta. həmrah. (- tutasız: tək. təkin. yalnız. yoldaşsız). **- yoldaşsız**: tutasız. tək. təkin. yalnız.

yoldramaq$_{ka}$: yaldıramaq. parlamaq. yoldıramaq.

yoldruq : yaltrıq$_{ka}$. parlaq. süslü. yuldruq. cilalı.

yoldruqa$_{ka}$: yoldurqa. qılınc kimi uzunca bir bitgi.

yoldruq$_{ka}$: yaldruq. parlaq. süslü.

yoldurqa: yoldruqa$_{ka.}$ qılınc kimi uzunca bir bitgi.

yoldurqa$_{ka}$: qılınc kimi uzunca bir bltqi.

yoldurmaq: <> **yülıtmək**$_{ka}$.

yolışmaq: yoluşmaq$_{ka.}$ yağmalaşmaq.

yolıtmaq$_{ka}$: talamq. yağmalamaq. yoluşdurmaq. yolutmaq. yulutmaq yulıtmaq. yulutmaq. yolqatmaq. - bəy boynu **yolıtdı**: bəy elini taladı.

yolıtmaq$_{ka}$: yağmalamaq. yoluşturmaq. yolumaq.

yolqa : tapın. qazanc. mənfəət. istifadə. - bunlar **yolqasız** nələrdir: şeylərdir. - yolqa güdən yola çıxar: qazaş güdən qazana girər. - böyük tanrım yolda verdi, yolqada.

yolqamaq: yolqanmaq. dəğərlənmək. istifadə edmək. nərsəni işə tutmaq. - gedib bir nə **yoldu** gəldi.

yolqanmaq: yolqamaq. yolmaq. dəğərlənmək. istifadə edmək. nərsəni işə tutmaq. - istəyiz kimi **yolqanın**.

yolqaşmaq : çəkilib uzanmaq.

yolqıra : yol üstü. - gəldi mənə **yolqıra**.

yolqırmaq$_{ka}$: yolda rastlamaq.

yolqmaq$_{ka}$: yolmaq. sıyırmaq. çatlatmaq. bir şeydən hərhanki bir şeyi çıxarmaq. soymaq.

yolqunmaq$_{ka}$: sıyrılmaq. uzanmaq.

yolqurmaq: yorğurmaq. yormaq. açmaq. - buxcanı yor: aç. - **yorulmuş** qapı: açılmış qapı.

yolquşmaq$_{ka}$: asıq, kar faydalaşmaq.

yolla : edqil. eyqil. göndər. - **eyqil** məni döğüşgə.

yolmaq$_{ka}$: **1**. yolqamaq. yolqanmaq. dəğərlənmək. istifadə edmək. nərsəni işə tutmaq. **2**. qurtarmaq. buraxmaq. bitirmək. salıvermək. - ər bulunu **yoldu**: əsiri qurtardı. - ər tutuğu **yoldu**: kişi girovu çıxartı. - arvad başın **yoldu**: canın qurtardı. **3**. salmaq. dalmaq. dallamaq. - quşun tükləri **yol**. **4**. cızmaq. cırmaq. yırtmaq. - daş ayağım **yoldu**. **5**. cızmaq. - bitik **yolmaq**: kitab yazmaq.

yolratmaq: yolrıtmaq$_{ka}$. alovlandırmaq. parlatmaq. yalratmaq. yalrıtmaq.

yolratmaq$_{ka}$: yolrıtmaq. parlatmaq. yalratmaq. yalrıtmaq.

yolrıtmaq: yalrutmaq. parıldatmaq.

yolrıtmaq: yolratmaq$_{ka.}$ parlatmaq. yalratmaq. yalrıtmaq.

yolrıtmaq$_{ka}$: alovlandırmaq. parlatmaq. yalratmaq. yalrıtmaq. yolratmaq.

yolsuz$_{ka}$: yolunu azıtan kimsə·.

yolturmaq$_{ka}$: buraxtırmaq. boşaltırmaq. azad eddirmək. - bulunu **yolturdu**: köləni, əsiri boşaltırdı.

yolub parçalanmaq: tıtmaq$_{ka}$. titmək. didmək.

yoluğan : çalqan$_{ka}$. müsri. xəstəliyin bir yerdən başqa bir yerə yeriməsi, keçməsi.

yoluğu : **yoluğ**. yolağu$_{ka}$. yoluq. dəstək. dayaq.

yoluq : **1**. fədayi. alsığ. öləndaq. başandaq (öz ölümünə, başına and içən kişi). - sənə **yoluğ**. - min kişi **yoluğ** onun özünə. **2**. ehsan. qurban. fidyə.

yoluq : yolağu$_{ka}$. yoluğu. dəstək. dayaq.

yoluqlu$_{ka}$: ehsan verən. - **yoluğlu kişi**$_{ka}$

yoluqmaq: yorəıqmaq. hizura çatmaq.

yolumaq. yolıtmaq$_{ka}$. yağmalamaq. yoluşturmaq.

yolun : iyid. ərən. fədayi.

yolunmaq: **1**. yulqunmaq$_{ka}$. sıyrılmaq. **2**. tilinmək$_{ka}$**.** uzunlamasına dilinmək.

yolunmaq$_{ka}$: **1**. yoldan, olduğu yerdən, durumdan ayrılmaq. cırılmaq. **2**. azat edinmək. buraxılmaq. boşanmaq. - qul **yolundu**. - bulun **yolundu**: əsir, tutsaq ötürüldü.

yoluşmaq : ürpəşmək$_{ka.}$ qarışmaq.

yoluşmaq$_{ka}$: yağmalaşmaq. yolışmaq.

yoluşmaq$_{ka}$: yağnıalaşmaq· - yolıtmaq. yolutmaq. yulıtmaq. yulumaq yuluşmaq. yulutmaq.

yoluşturmaq: yolıtmaq$_{ka}$. yağmalamaq. yolumaq.

yolutmaq: <> **yülıtmək**$_{ka}$.

yolutmaq$_{ka}$: yağmalatmaq.

yolutmaq$_{ka}$: yalutmaq. yoldurmaq. yağma ettirrnək. - bəy boyu **yolutdi**: bəy bir eli yağmaladı.

yonaq$_{ka}$: **yanaq**. heyvanların səmərləri altına qoyulan bez, keçə, çul çuval parçası.

yonan : yonqar. çaldıran onqar. onar. dələn. qazar.

yonca : yorınca. yorıncqa$_{ka}$.

yonındı$_{ka}$: yonuntu. talaş.

yonınmaq : yonsunmaq. yonar göstərmək. yonunmaq$_{ka}$.

yonqa : talaş. yartu$_{ka}$.

yonqaq$_{ka}$: **yonqat**. **yanqa**. **yanıt**. çuğulluq. qoğut. şikâyət.

yonqamaq$_{ka}$: **yonqatmaq**$_{ka}$. **yanqamaq**. **yanıtmaq**. **1**. çuğullamaq. qoğulamaq. şikâyət edmək. **2**. onarmaq. türütmək$_{ka}$. törütmək. törətmək. durutmaq. yaratmaq. düzəltmək.

yonqar : yonan. çaldıran

yonqat : yonqaq$_{ka}$. yanqa. yanıt. çuğulluq. qoğut. şikâyət.

yonqatmaq$_{ka}$: yonqamaq$_{ka}$. yanqamaq. yanıtmaq. çuğullamaq. qoğulamaq. şikâyət edmək.

yonquş : **onquş**$_{ka}$. nəqş. yazı. oyma. kəndəkarlıq.

yonmaq : **1**. çaldırmaq. tıraşlamaq. - daşdan heykəl **çaldırdım**. **2**. onğmək$_{ka}$. dəlmək. qazmaq.

yonmaq : törpmək. törpüləmək$_{ka}$.

yonsunmaq : yonar göstərmək. yonınmaq: yonunmaq$_{ka}$.

yontı : yonuntu. tıraşa.

yontmaq: igəşmək$_{ka.}$ əğələmək. kəsmək. tıraşlamaq.

yonumaq$_{ka}$: yonmaq.

yonunmaq$_{ka}$: yonmaq işin görmək. - ağac **yonundu**.

yonuntu: yonındı$_{ka.}$ talaş.

yonuntu: yontı. tıraşa.

yonuş$_{ka}$: yontmaqda yardım.

yoradiqan$_{6}$: yeriyən.

yorbaq$_{ka}$: **yorbağ**$_{ka}$. **burbağ**$_{ka}$. burbaşlama. buruşdurma. sürüşdürmə. işi uzatma. işi yarıda buraxma. sürüncəmədə buraxma.

yorçı$_{ka}$: usta qılavuz. yolçu.

yordum : yeridim.

yorgəşmək: yayılıb dağılmaq. - yazlıb yana **yörgəşür**: hər yana yayıldı.

yorğa : yerişli. xoş rəfdar.

yorıdaçı$_{ka}$: işləri, gücləri yerinə qoyan. qohum, dünürlər arasında qəlib gedən adam.

yorıq : **-** qız kişi savı **yorıq** bulmaz: paxılın adı sanı keçməz. adı qalmaz. - onun **yorıq** nətək kişi belə: onun davranışı necədir elinən.

yorıq : borıq. yoruq. xuy. gediş.

yorıq : **yorığ**$_{ka.}$ **yoruq**. **1**. axarlı. axın. açıq, yağar. fəsih. - **yorıq dil**: açıq axın, aydın dil. - toq axını: **yorıqı**. - su axını: **yorıqı**. - devrim cərəyanı: **yorıqı**. - qırıq cərəyan: **yorıq**. - işgə **yorıq**, gur **yorıq**. **2**. borıq. axma. yürümə. yerimə. gediş. xuy. **3**. təfsir. - quran **yorıq**. - söz **yorıq**. **3**. qəbul. - yorıqa düşmək: qəbula düşmək. - yorıq qıldılar: qəbul etdilər. - **yorıq köçü**: qəbul saatı. **4**. yorma. təbir. - **tüş yorıqı**: yuxu yorma. **5**. uz dilli. **6**. axın. cərəyan.

- yorıq tıl$_{ka}$: açıq, yağar dil.

yorıqa$_{ka}$: yorqa. yürüyən. yergin.

yorıqçı$_{ka}$: **elçi**. qohumlar, tanışlar dunürlər arasında qəlib gedən adam.

yorıqlamaq : qəbul edmək. təsvib edmək. - **yorıqlasa** qol atar: imzalar.

yorıqlı$_{ka}$: yeriməyi düşünən.

yorıqu$_{ka}$: yürünəcək yeri, çağı.

yorımaq$_{ka}$: (**o** <> **ü** <> **e**) **yürümək**. **yerimək**. <> **yorıtmaq.** gedmək. varmaq. - buna yağru **yorıma**: onun dövrə bərinə dolanma.

yorıncqa : yonca. yorınca$_{ka}$.

yorış : yoldaş.

yorışmaq$_{ka}$: **1**. yürüşmək. birlikdə yol sürmək. qoşulub gedmək. **2**. yol yol olmaq. - boyaçı parçaları **yorışdı**: yol yol cızıqladı. **3**. yıpraşmaq. əprişmək. yorışmış parça.

yorıtmaq$_{ka}$: **yorutmaq**. yormaq. yorquzmaq. - o məni təlim **yorutdu**: çox yordu.

yorıtmaq$_{ka}$: **yürütmək**. **yeritmək**. yoğurtmaq. açmaq. sürtmək. sürdürmək. - ot onun qarnın **yorıdı**.

yorqa : **yorğa**. < **yortmaq**. bax > **yorta**. **1**. yorıqa$_{ka}$. - açınan at yüyrək olur: tumar görmüş at yeyrək, **yorqa** olur. **2**. yorulmaz. yeryişli.

yorqan : yoğurqan. hər nəyin örtüyü. toqurqan: yoğunluq, örtək, qalınlıq verən. - yoğurqandan artuq ayaq kösülsə üşüyür.

yorqaşur: yaxınlaşur. - - yarqalımat **yorqaşur**: açmaq üzrə gedir.

yorqun : aruq$_{ka}$. çarçaq$_{6}$. çərçək$_{6}$.

yorqunmaq : **yorunmaq**. yorulmaq. çarçamaq$_{6}$. çərçəmək$_{6}$.

yorqurmaq : **yorğurmaq**. yormaq. yolqurmaq. açmaq. - buxcanı yor: aç. - **yorulmuş** qapı: açılmış qapı.

yorqutmaq : yormaq. çərçətmək$_{6}$. çarçatmaq$_{6}$.

yorquzmaq : yorıtmaq$_{ka.}$ yorutmaq. yormaq. - o məni təlim **yorutdu**: çox yordu.

yorma : yorıq$_{ka.}$ təbir.

yormaq$_{ka}$: yorımaq. **1**. arqurmaq$_{ka}$. arqırmaq. arqarmaq. boşaltmaq. açıtmaq. **2**. çərçətmək$_{6}$. çarçatmaq$_{6}$. yorqutmaq. **3**. əmgətmək$_{ka.}$ əməyə qoymaq. **4**. yorğurmaq. yolqurmaq. açmaq. - buxcanı yor: aç. - **yorulmuş** qapı: açılmış qapı. **5**. yorıtmaq$_{ka.}$ yorutmaq. yorquzmaq. - o məni təlim **yorutdu**: çox yordu. **6**. yarsıtmaq$_{ka.}$ arsıtmaq. tiksindirmək. irgəndirmək. **7**. yarmaq. çözmək. ayırmaq. **8**. (**r** <> **z**) **yo<u>z</u>maq**. yarmaq. təbir edmək. **9**. yürümək. yerimək.

yorta : yortma. iti, yeyin, yügrək yeriş. yaya. piyada. yeriyərək. - tanq ata **yortalım**: dan atınca yeriyərim.

yortar : yortma, iti, yeyin, yügrək yerişli at, başqaları.

yortma : yorta. iti, yeyin, yügrək yeriş.

yortmaq$_{ka}$: **1**. yerimək. - dan ata **yortalım**: səhər açılınca yeriyərim. **2**. dört nala qaçrmaq. iti, yeyin, yügrək yeriş. - yorta yorta at gəlir. **3**. bir işə başlamaq üzərə yerümək.

yortuq$_{ka}$: yorta, yola salmaya qatılan kimsələr.

yortuşmaq$_{ka}$: atı yürtələmək. yorqalamaq.

yoruq : borıq. yorıq. xuy. gediş.

yoruq$_{ka}$: burqu. burıq. gediş. yorıq. gediş. xuy. axlaq. - bacının **burqu** necədir. - kəndi **burquzu** qorun, soyuq qanlı qalın. - çox **burqulu**: çox axlaqlı. - **burqusuz**: axlaqsız.

yorulmaq : **yorunmaq. yorqunmaq**. **1**. armaq$_{ka}$. çarçamaq$_{6}$. çərçəmək$_{6}$. **2**. turulmaq$_{ka}$. durulmaq. tuqunmaq. tükünmək. usanmaq. bıqmaq. bezmək. **3**. tövşəmək. təvşəmək$_{ka}$. için için ötmək. çarçamaq. ləhləmək. **4**. çözülmək. açılmaq. ayrılmaq. - uşağ beşikdən **yoruldu**: alındı, açıldı. **5**. əmgəşmək. incimək. zəhmət çəkmək. əmgənmək$_{ka.}$ narahat olmaq.

yorunmaq: **yorulmaq. yorqunmaq**. çarçamaq$_{6}$. çərçəmək$_{6}$.

yorutqan$_{ka}$: çox ossuran. osurqan. ossuranqulu.

yorutmaq: yorıtmaq$_{ka.}$ yormaq. yorquzmaq. - o məni təlim **yorutdu**: çox yordu. - kilas qarın **yorıtır**: sürdürür.

yorutmaq$_{ka}$: osurmaq.

yosuluban: yoxsuluyam.

yoşılmaq : yişilmək. yuşılmaq. yuşulmaq. yüşülmək. yüşilmək$_{ka}$. əli işə yatışmaq. udumlaşmaq. işilmək.

yoşmq : axmaq. - bu baş ol, qanı **yoşulqan**.

yotturmaq$_{ka}$: yoddurmaq. (**t** <> **z**) yozturmaq$_{ka}$. yoxdurmaq. sildirmək.

yovlıç$_{ka}$: **yolıç**. **yulıç**. gəçi qıllarının diplərindəki yumuşaq incə yün.

yovsamaq: yavsamaq$_{ka.}$ yağlamaq. könül almaq istəmək.

yoz : çaşıq. axmaq. - **yaz yoz** kişi: axmaq, budala adam.

yozaq : əqim. sonsuz. qısır.

yozamaq$_{ka}$: qısır, sonsuz qalmaq.

yozdurmaq : **yoxdurmaq**. yossurmaq$_{ka}$. sildirmək.

yozdurmaq: **yazdırmaq**$_{ka}$. çaşdırmaq.

yozlaşmaq$_{ka}$: qudurmaq. yufqadmaq$_{ka}$. yuvqalanmaq.

yozmaq : **1**. pozmaq. silmək. - bu bitiyi **yoz**: bu yazını, hesabı poz. - onun **tozun** yoz: sil. - bitiyi **yoz**: yazını sil, poz. **2**. bir qırışıq, bulaşıq nəyi arıtlayıb açmaq. yuvub təmizləmət. - bu yuxunu yoz. - qılınclar qandan yozan.

yozmaq : yazmaq. çaşmaq. iştibah edmək. - atıcı **yazdı**.

yozturmaq$_{ka}$: (**z** <> **t**) **yotturmaq**$_{ka}$. yoddurmaq. yoxdurmaq. sildirmək. pozdurmaq.

yozturmaq$_{ka}$: yotturmaq$_{ka}$. yoddurmaq. yoxdurmaq. sildirmək.

yozuşmaq: pozmaq işin görmək.

yöncik : **yolçuq**. **yencik**. yolçu. yoluq. yoxsul. kasıb. kədərlənmiş. düşqün. kötü. zayıf. cılız. arıq. halı yaman çürüqlügündən ələ alınamayan. - **yöncik** ər. - **yöncik** iş. - **yönciyin** biridir. - **yöncik** ölkələr. - **yöncik,** yavuz tavradı: alçaq, çox pis davrandı. - **yencik** görsə qonaqlar.

yöncimək$_{ka}$: yencimək. kötüləşmək. yoxsullaşmaq. ısırmaq. tincimək. - qılıc tutıqsa, iş yöncür, ər tatıqsa, ət tüncür: qılıc paslansa, iş pozulu, kişi farslaşsa, əti tıncığır, əprir. əti tökülür.

yöncırmaq: kötüləşmək. pozuşmaq. - ər işi **yönçirdi**.

yöncitmək$_{ka}$: incitmək. yonçıtmaq. - o məni **yoncıtdı**.

yönçünmək : yencinmək. yolqunmaq. yoxsullaşmaq. xərablaşmaq. - bilgə bükü yöncüdü: bilqin bilənlər yoxsullaşdı.

yöndürmək$_{ka}$: **1**. yönətmək. döndərmək. - onu evə **yöndür**. **2**. qusmaq. qaytarmaq. - ər **yöndürdü**. - çox yeməyin, **yöndürməsi** var. **3**. birin qorxuzub, bir işdən yanıtmaq, döndərmək.

yönəlmək$_{ka}$: başlanmaq$_{ka}$. səvülmək. savılmaq$_{ka}$. əğilmək. meyillənmək. utrunmaq$_{ka.}$ otrunmaq. dayatmaq. qarşı qoymaq istəmək. - könlüm sənə **səvülür**.

yönətmək: **1**. savurmaq. göndərmək. **2**. bitirmək. yetiştirmək. öndürmək$_{ka}$.

yönləşmək$_{ka}$: qarşılaşmaq. tuşlanmaq$_{ka}$.

yöntəmsiz: bacarıqsız. udumsuz. uquvsuz.

yörə : **yörə**$_{ka}$ **yörgə**. **yerə**. **yürə**. **yürə**$_{ka}$. döğrə. çevrə. yer. mühit. - bu **yörə** dolanma daha. - pozuq yörə.

yörəmək : yörgəmək. dolamaq. döğrəmək. çevrəmək. qurşamaq. - ip **yörgəmək**.

yörgənc$_{ka}$: sarmaşıq. ağaclara sarılıp onları qurutan bir çeşit bitgi.

yörgəncü$_{ka}$: burbaş. bir şeyə burulan, dolanan burşaq. sarqı. dolaq. - ayağıva **yörgənc** sarıl.

yörgənmək$_{ka}$: **yürgənmək**. örtülmək. sarılmaq.

yörqə : **yörgə yörə**. döğrə. çevrə. yer. mühit. - bu **yerə**: bu **yörəyə**. - bu **yörə** dolanma daha. - pozuq **yörə**.

yörqək$_{ka}$: örtü. örtək. **- yörqək bolmaq**$_{ka}$: örtülmək. göy qara dumanla örtülmək.

yörqəmək$_{ka}$: **yörkəmək**. **yörəmək**. dolamaq. döğrəmək. çevrəmək. qurşamaq. sarmaq.

yörqənmək : **yörgənmək**. **yörənmək**. **yoğurqanmaq**. dolanmaq. döğrənmək. çevrənmək. qurşanmaq. - uruq ağaca **yörkəndi**: ip ağaca dolaşdı. - çulquya **yörkəndim**.

yörqəşmək$_{ka}$: **yürqəşmək**. sarılmaq. birbirinə girmək. dolaşmaq. qarışmaq. yürqenmək$_{ka.}$ örtülmək.

yörqətmək: **yörgətmək**. **yörətmək**. döğrələmək. çevrələmək. qurşatmaq.

yörqətmək$_{ka}$: sardırmaq.

yörtü : **örtü** (< **yörə**: çevrə). örgü. hörgü. - işin **örtüsün örgüsün** açın.

yu : **yu**$_{ka}$ qadınların bir şeydən utandıqları zaman söylədiqləri bir söz.

yubaqu$_{ka}$: üzərində durulmayan. yapılmaması gərəkən.

yubalmaq: yubamaq. yubanmaq. burbamaq$_{ka.}$ buybamaq. işi sallamaq, üzərinə duşməmək. savsaqlamaq. burcutmaq. döndərib çöndərmək.

yubanma$_{ka}$: **1**. uzaqlıq$_{ka}$. gecikmə. kütlük. **2**. ərinmək$_{ka.}$ gecilmək.

yubanmaq$_{ka}$: **1**. çəkinmək. buraxmaq. qəflət edmək. - işdən nəyə **yubanısın**. - aldığını, ödəməkdə **yubanmaq**. **2**. qarışmaq. burbaşmaq$_{ka}$. yubalmaq.

yubat : gecit. tə'xir. - bir dəyqə **yubatla** çatdıq: gecitlə.

yubatmaq$_{ka}$: **burbatmaq**. **yubılamaq**$_{ka}$. **1**. yap yup qılmaq. yuplamaq. savsaqlatmaq. nərsənin sırasın, nobətin, düzgünün atmaq buraxmaq. çaşdırmaq. bir işi başqasının üstünə atmaq, döndərmək. başdan eləmək. sustalmaq. ağırlamaq. aldatmaq. kələk yapmaq. al edmək. ələsalmaq, ələ sərimək. **2**. qecirmək. dala salmaq. **3**. nərsəni uzatmaq. aşınmaq. geriyə salmaq. **4**. gecirmək$_{ka}$ geciktirmək. **5**. qalturmaq$_{ka.}$ dallamaq. daldamaq. rədd edmək. arxada buraxmaq. dalı atmaq.

yubılamaq$_{ka}$: **burbatmaq**. **yubatmaq**$_{ka}$. **yupalamaq**. yap yup qılmaq. yuplamaq. savsaqlatmaq. nərsənin sırasın, nobətin, düzgünün atmaq buraxmaq. çaşdırmaq. bir işi başqasının üstünə atmaq,

döndərmək. başdan eləmək. sustalmaq. ağırlamaq. aldatmaq. kələk yapmaq, qılmaq. al edmək. ələsalmaq, ələ sərimək. yuplamaq. yap yup qılmaq$_{ka}$.

yudqı$_{ka}$: 1. qaranlıq. 2. əkşi.

yudum : bax > **udum**

yufaq : - incə torqu: incə turqu: zərif, yumşaq **yufaq** pərdə, parça.

yufqadmaq$_{ka}$: yozlaşmaq$_{ka.}$ qudurmaq. yuvqalanmaq.

yufqa$_{ka}$: 1. incə. ucuz. yupqa. yuvqa. 2. oğulluq. oğulluğa alınmış. 3. püşqəl$_{ka}$. büsqəç. çörək. pidə kimi incə əkəmək.

yufqalanmaq$_{ka}$: yumşanmaq. incəlib büzülmək. əprikmək. yaltaqlanmaq. yavuncımaq.

yufluşmaq$_{ka}$: yuvarlanmaq. yuvluşmaq.

yufuşmaq$_{ka}$: bax > **yuvuşmaq**$_{ka.}$ (< **yummaq**: yığmaq).

yux:yuq

yuq yaq$_{ka}$: çanaq bulaşığı. qaptaki bulaşıq.

yuq : **yük**. yoxuş, uca. - **yuq yer**.

yuqa : yuğa. yuvan. yunğaq$_{ka}$. təmizləyən. aran. sabın.

yuqaç$_{ka}$: **yuquç**. bir dərə, ırmağın qarşı tərəfı

yuqa$_{ka}$: qatmər. yufqa. yuvqa. - **qatma yuqa**. yağda pişirilən, ufalanmış əkəmək.

yuqaq$_{ka}$: su quşu.

yuqar : **yoqar.** yuxarı. - **yuqar** qopub səkrəlim: yuxarı qalxıb atılalım.

yuqar . **yuxar**. yuxar. yuxarı. üst. ülya. (# quyu. aşağ. aşağı. alt. sufla)

yuqar : yuxar. yuxarıraq.

yuqarı : **yuxarı**. andaq$_{ka.}$ bir nəsnənin üst yanı. dam. (# **endək**: tavan. alt)

yuqaru : yoqaru$_{ka.}$ yuqarı. yoqar.

yuqçı$_{ka}$: yuyucu. yıxacı·.

yuqdu$_{ka}$: yoqru. yoqruy. cuqdu. dəvənin uzamış olan tüklər.

yuq$_{ka}$: **yuq**$_{ka}$. **yoğ**. **yoğaq**. çanaq bulaşığı. qaptaki bulaşıq·.

yuqlamaq: <> **yoğlamaq**$_{ka}$.

yuqlatmaq: yuxarlatmaq. çıxartmaq. - köçü dağa **yuqlatılar**.

yuqlu. : **yuxlu**. . usuz$_{ka}$. yuxusuz. uykusuz.

yuqmaq : yoğmaq. yoğunlamaq. çoxalmaq. - qut qovuq versə izim (iyim. iyəm. tanrım) quluna \\ gündə işi yüksəlibən **yuqar** ağar.

yuqmaq : yuqulmaq. yoğulmaq. bulaşmaq. sıvanmaq. sirayət edmək.

yuqruş$_{ka}$: **yükrüş**. türklər'cə xalqtan vəzirliq dərəcəsinə çıxan adam. xaqandan bir dərəcə aşağıdır.

yuqturmaq$_{ka}$: **yuğturmaq**$_{ka}$ **yoğturmaq**$_{ka}$ sürdürmək. bulaştırmaq.

yuqu : - **yuxu görmək** xiyallanmaq. sanğamaq. sağımaq$_{ka}$. **- yuxu görmək**: . tüşəmək$_{ka}$. düş görmək. - **yuxu** davası. uyuq ot.

yuquç$_{ka}$: ırmaq. dərənin arxası.

yuquq : **yuğuq. yuvuq**$_{ka}$ (selinən) yuvarlanıb, yuvulub dığırlanan daş, qaya.

yuqulmaq$_{ka}$: **yuğulmaq**. yığılmaq. yükülmək. yoğulmaq. yoğunmaq. bulaşmaq. sıvanmaq. sürtülmək. - əlim qarıya **yuquldu**. - **yuqulan** xəstəlik. - uzaq dur ki, **yuqulmasın** xəstəlik sənə. - indi igid yuğulsun: iyidləri yığılsın.

yuqulu : **yuxulu**. uyuz$_{ka.}$ uyur.

yuqunmaq: **yuğunmaq**. yayınmaq.

yuqurmaq : <> **yuğurmaq**.

yuqusuz : **yuxusuz**: . usuz$_{ka}$. uykusuz. yuxlu.

yuquşmaq$_{ka}$: **yoğuşmaq**$_{ka.}$ bulaşmaq. yayılmaq. toquşmaq.

yul : **yol**. yulaq: yolaq$_{ka}$. **- yul yulaq**$_{ka}$: **yol yolaq**. kiçik kiçik birçox su pınarlan.

yula$_{ka}$: **yola**. çırax. qəndil. - **yula** uzdu: çırax uçdu: üzdü. söndü. keçdi.

yulaq$_{ka}$: **yolaq**$_{ka.}$ bulaq. kiçik kiçik birçox su pınarlar. **- yol yolaq**.

yular$_{ka}$: örg$_{ka.}$ at yular

yularlamaq: bağlamaq.

yularlanmaq$_{ka}$: yular taxılmaq.

yularlıq$_{ka}$: yularlı. yularlanmış.

yuldruq : yaltrıq$_{ka}$. parlaq. süslü. yoldruq. cilalı.

yulduz$_{ka}$: ulduz. ulduzların gənəl adı.

yulıç$_{ka}$: yolıç. geçi qıllarının dibində bulunan yumuşaq incə yünlər.

yul$_{ka}$: **yol**. qaynaq. çay. pınar. su pınarı, qaynağı, qözü.

yulqunmaq$_{ka}$: sıyrılmaq. yolunmaq.

yultqa qılmaq$_{ka}$: alay edmək. məsqərəya almaq.

yulun$_{ka}$: murdar ilik. qoxar ilik. nuxa'.

yum : **um**. geyim. paltar. örtük. üm$_{ka.}$ şalvar. don. yuman, örtən nəsnə)- yumləyu qaçdı: geyinib qaçdı.

yumaq$_{ka}$: **1**. sümək. bəstik. pistik$_{ka}$. bistiq. pıstıq. püstə. **2**. qaptaq$_{6}$. kələf. **3**. tüşrüm$_{ka}$ <> türşüm. tışrum. əğrilmiş ip yumağı. **4**. yımaq. yamaq. qıraq. qıyı. **5**. yığamaq.

yumarlanmaq: **yumqaqlanmaq**$_{ka}$. yutruqlanmaq. yumruq yapmaq.

yumarmaq: yamurmaq. tomurmaq$_{ka.}$ tomruq tomruq yapmaq, kəsmək. - ağac **tomurmaq**: ağacı girdə girdə kəsmək.

yumas$_{ka}$: yummaz. yunmaz. - qanıq qan belə yunmas.

yumaş : yavaş. yumşaq. xoş axlaq. ram. yumşaq. ramış aram. evli. (# **ası**: vəhşi). . - yumaş kişi: ramış oğlan.

yumdarmaq$_{ka}$: toplamaq.

yumğaq$_{ka}$: yumaq. yuvarlanan. yuvarlaq olan hər şey. - **yumqaq** dənə: yuvarlaq dənə.

yumınmaq$_{ka}$: yumunmaq. yumaqlanmaq.

yumıtqan$_{ka}$: toplanan.

yumıtmaq$_{ka}$: **yumutmaq**.

yumqaqlanmaq$_{ka}$: yumaqlanmaq. yuvarlaq yapılmaq.

yumqal : qəltək. fırlanan.

yumqalamaq: qəltəkləmək. fırlandırmaq.

yumqı : toplu. çox. - **yumğı** nə: sıx şey. - kişi **yumğı** gəldi: çoxlu kişi gəldi.

yumqın : baha. - yuvqa alıb **yumqın** satmaq: ucuz alıb baha satmaq.

yumqınqa : toplu olaraq. topdan. həp birdən. bütün. üstü üstə. ümdə. umumi.

yumquc : yumuc. buncuq. muncuq. boğuncuq. bir yerə yığılmış nərsə. təcmi. cəmləmə.

yumlamaq: **umlamaq**. geyinmək. örtünmək. - **yumləyu** qaçdı: geyinib qaçdı. - çoğan oynar yumləyu: paltardan çoğan yarışı edmək.

yumluşmaq$_{ka}$: yumulmaq.

yumruq : (**m** <> **d**) **yu<u>d</u>ruq**$_{ka}$.

yumruq : dük. tüq

yumruqlamaq: dükləmək.

yumruqlamaq: tüqləmək$_{ka.}$ dükləmək.

yumrumaq: yamrumaq. yığmaq.

yumşaq : **1**. yupşaq. yavaş. yumaş. yapır$_{ka.}$ yapa, yaba$_{ka}$, əprik olan, yaş, **2**. ıslaq olan. yapur. **3**. silik. saf. sığan. tovsuz. düz. saf. hamar. ram. yarmaş$_{ka}$. kəv. **4**. yavaş. xəfif. axşın. - **yarmaş** un. incə, narın un.

xoşaxlaq. 5. ərik. - **ırik** ər: yumşaq qılıqlı, xuylu. 6. dözün. dözümlü. utun. sərin. səbirli. qotuq. qoyuq. mütəvazi. 7. duzun. dadlı. - **duzunluğun** qayıştım: qolayca davrandım.

yumşaq : yupşaq .

yumşaq$_{ka}$: yumuş. işlək. hazır. razı. - qatıqları **yumşatın**: bərk olan nərsəni, çətin qəddar kişini işə hazırlayın.

yumşaqlanmaq$_{ka}$: yaltaqlanmaq. hər nərsiyə hazırlığın göstərən.

yumşamaq$_{ka}$: **yamşamaq**$_{ka}$. yumuşamaq. yapıqmaq. yapılıb, yaslanıb, batınmaq nitəliyin qazanmaq.

yumşanmaq: yavuncımaq: yufqalanmaq$_{ka}$. incəlib büzülmək. əprikmək. yaltaqlanmaq.

yumşatmaq$_{ka}$: 1. tərin, suyun silib tumarlamaq. tərləmək. 2. yapurmaq. hamarlamaq. - yer **yapurdı**. 3. qoğşamaq$_{ka.}$ oğşalamaq. gəvşətmək. 4. işlək duruma salmaq. işə hazırlamaq. səpilətmək. dəbbağlamaq. 5. yığıb, yumurlayıb sıxlaştırmaq. bir işi tez, itin görmək, qılmaq. uzatmamaq. - sözün yumşat söylə: çabıq de, oxu. - **yumşat**: uzatma. - **yumşatmadı**: uzatdı.

yumtarmaq : yığmaq. cəmləmək. - kişini **yumtardı**: eli yığdı.

yumuc : yumquc. buncuq. muncuq. boğuncuq. bir yerə yığılmış nərsə. təcmi. cəmləmə.

yumuq : öküm. oğuş. - bir **öküm** yarmaq.

yumunmaq$_{ka}$: **yumınmaqka.** yumar kimi görünmək. yumınmaq. yumar kimi görünmək.

yumur$_{ka}$: heyvanların qödən bağırsağı.

yumurlamaq$_{ka}$: yumru yapmaq. toplamaq.

yumurlanmaq$_{ka}$: toplanmaq.

yumurtqa: **yımırtqa**$_{ka}$. yumurta. bütün quşların yumurtaları. insanların. heyvanların taşaqları. **- yımırtqa yaş**$_{ka}$: təzə kələm.

yumuş : sələk. ulaq. yola. sam. saf.

yumuşaq : qorxaq. sarıçqa$_{ka}$. sarıçaq

yumuşaqlıq : tuzunluq. tuznuluq. tuzunqul. tuzluluq.

yumuşanmq: yavaşlanmaq$_{ka.}$ yavşalmaq. döləkləşmək.

yumuşçı$_{ka}$: mələk. firişdə.

yumuş$_{ka}$: 1. elçilik. xitmət. vəzifə. tapma. tapı. tapuq$_{ka}$. 2. çumuşluq. dəsşuyi. 3. iş. məşquliyyət. 4. yumşaq$_{ka}$ işlək. hazır. razı. 5. qulluq. xitmət. vazifə. elçilik.

yumuşqa$_{ka}$: **yafışqu**. "qızılcıq", "qürən" deyilən dağ yemişi.

yumuşqan: boşutqan. müshil.

yumuşluq : çumuşluq$_{ka.}$ ayaqyolu. müstərah.

yumutmaq: yumutmaq$_{ka}$. tumutmaq. tumatmaq. tumarlatmaq. toplanmaq.

yumutmaq$_{ka}$: **1**. yumıtmaq. tumutmaq. tumatmaq. tumarlatmaq. toplanmaq. - el **yumutdu**: xalq yığışdı. **2**. culqamaq. qapsamaq. - sağınc məni yumuttu.

yumuz : (< **yum**: dolu. toxlu) - **yumız** ər: ətli, tıknaz kişi.

yumuz$_{ka}$: yoğun, çağ, girdə topul, ətli, tıqnaz, güdə olan. - **yumuz** ər.

yumzuq : umzuq. omzuq$_{ka.}$ nərsədə dönük, girdə bölük. yəhərin ön, arxa yanı.

yun quş$_{ka}$: tavus quşu.

yunq yap$_{ka}$yunğ yap$_{ka}$. yün yapağı.

yunqaq$_{ka}$: çöğən. çoğan. kökü sabun kimi qöpürən bir bitgi.

yunqaq$_{ka}$: **yunğaq$_{ka}$**. yuqa. yuğa. yuvan. təmizləyən. aran. sabın.

yunqlamaq$_{ka}$: **yunğlamaq$_{ka}$**. yün qırpmaq·.

yunqlatmaq$_{ka}$: **yunğlatmaq$_{ka}$**. yünlətmək. yün qırxtırmaq·.

yunlatmq: yunun qırxdırmaq.

yunmaq : (**y** <> **c**) **cunmaq**. **1**. cummaq. çimmək. yuğunmaq. yıxanmaq. arınmaq. **2**. dəsdəmaz olamaq.

yuntağ$_{ka}$: **yundağ$_{ka.}$** at təzəyi. at fışqısı. at qübrəs. - yağın ərsə gərək, yundağı təqir: at təzəyi düşmanın atınında olsa belə dəyir: yararlıdı, dərdə dəyir.

yuntı$_{ka}$ **yundı$_{ka}$**. **1**. yıxantı. bulaşıq. **2**. at. at sürüsü.

yunuş$_{ka}$: çumuşluq. dəsşuyi.

yup : **yup$_{ka}$** yap. hilə. al. - al.

yupqa$_{ka}$: yufqa. yuvqa.

yuplamaq: yubılamaq. yap yup qılmaq$_{ka}$. kələk qılmaq. al edmək.

yuplamaq$_{ka}$: **yaplamaq**. kələk gəlmək. al edmək. burbatmaq. yap yup qılmaq. yubatmaq. yubılamaq.

yupşaq : yumşaq.

yurbaş$_{ka}$: külbaş. çalqaş. çalbaş. qarışıq. ucu, çıqılacağı bəlli olmayan nərsə. - **yurbaş iş.**

yurç$_{ka}$: qarının kiçik ərkək qardəşi. kiçik qayın.

yurd : vətən. ornaq.

yurlamaq$_{ka}$: haykırmaq. orılaşmaq. orlaşmaq. urılamaq. urlamaq. urlaşmaq.

yurt : **yurd**. **1**. qonum$_{ka}$. qoyulan yer. qonaq. qonum$_{ka}$. örən. - **yurt tutmaq**. yerləşmək. orqudlanmaq: ordulanmaq$_{ka}$. **2**. yört. yort: keçilməyə axmağa yol. dəlik. - **yurd** kiçik bolsa, anqut(qıf) böyük tut, çəmçən kiçik olsa belə, qazanı böyük tut. ayağın yekə olsa belə, atdımın kiçik tut. ürəyin bir olsunda, başın iki tut. ağzın bir olsada, qarnın iki tut. **3**. keçmiş, əsgi nələr. əntiqə.

yurtçu : əntiqəçi. keçmiş, əsgi nələrlə uğraşan.

yurttaş : - **yurttaşlardan** toplanan hər yığnaq: **imrən**$_{ka}$.

yuş : **yuş**$_{ka}$ **1**. sıqışma. yış. **- yuş bolmaq**$_{ka}$: sıxışmaq. **2**. yaşılliq.

yuşan$_{ka}$: şumal. düz. saf. - **yüşən** daş: şumal daş.

yuşılmaq: **1**. yişilmək. yuşulmaq. yüşülmək. yüşilmək$_{ka}$. yoşılmaq. əli işə yatışmaq. udumlaşmaq. işilmək. **2**. əmziqtən axıtilmaq.

yuşmaq$_{ka}$: yüşmək$_{ka}$. axıtmaq. əmziqtən axıtmaq· - yüşmək.

yuşul$_{ka}$: yaşıl. - **yaşıl yuşul**. - **yaşıl mışıl**.

yuşulqan$_{ka}$: axqan.

yuşulmaq$_{ka}$: **uçulmaq. 1**. axıb tökülmək. fışqırmaq. - qan **yuşuldu**. **2**. əli işə yatqın olmaq. yişilmək. yuşılmaq. yüşülmək. yüşilmək$_{ka}$. yoşılmaq. udumlaşmaq. işilmək.

yut : **yut**$_{ka}$ bəla. mun$_{ka.}$ qada. qışın soğuqta heyvanları öldürən ağır ulğan (qarlı boranlı haca).

yutıqmaq$_{ka}$: bəliya düşüb ölmək, qırılmaq. soquqtan ölmək.

yutruq$_{ka}$: (**d <> m**) **yumruq**. - yadın yağlı tikəsindən, özün qanlı **yumruğ** yey.

yutruqlanmaq: yumruq yapmaq. yumarlanmaq.

yutturmaq$_{ka}$: yalqatmaq$_{ka.}$ yalatmaq. utturmaq. yalfatmaq. sildirmək. yodturmaq.

yutuq : utuq. ütük. tamahkar. acgöz.

yutuqmaq: bəlaya, muna$_{ka,}$ qadaya uğramaq.

yutuqmaq$_{ka}$: quraqlıqtan arıqlamaq. ölüm durumuna gəlmək. - yutıqmaq.

yuturmaq$_{ka}$: götürmək. almaq. yükləmək.

yuv : **yoğ**. **yox**. **yax**. **1**. yaba, ası olmayan. ram. **2**. rəhmət. əzizləmə.

yuva : yin. en. nin. - arslan **yini**.

yuvac : **çuvac**$_{ka}$. çuvaş$_{ka}$. kərəki$_{ka.}$ çadır. cacır. çaşır.

yuvaq : **yuvqa**$_{ka}$. səfeh.

yuvalmaq$_{ka}$: yuvarlanmaq. yuvulmaq. dığırlanmaq. - onun başın **yuvarla**: kəs sal. - **yuvalmış** başın qurbanı: kəsilmiş başına qurban. - düşman başı **yuvalsın**.

yuvan : yuqa. yuğa. yunğaq$_{ka}$. təmizləyən. aran. sabın.

yuvarlaq : qurvı$_{ka}$. girdə.

yuvarlanmaq: yufluşmaq$_{ka.}$ yuvluşmaq.

yuvarlatmaq: yuvturmaq$_{ka}$. dığırlatmaq. - o topı **yuvarladı**.

yuvarsamaq: yuvarlamaq yazmaq, istəmək. yuvsamaq$_{ka.}$

yuvılmaq$_{ka}$: yuvulmaq. yumşamaq.

yuvqa$_{ka}$: **yufqa. yuqa. yuvaq. yupqa**. **1**. səfeh. axmaq. - **yuvqa b**olub qal: səfef olub qal. **2**. hər şeyin incəsi. zayıf. incə. aciz. yufqa. **3**. qatmər. **- yuvqa** alıb yumqın satmaq: ucuz alıb baha satmaq.

yuvqalanmaq: yozlaşmaq$_{ka.}$ qudurmaq. yufqadmaq$_{ka}$.

yuvqalanmaq$_{ka}$: yaramazlaşmaq. yozlaşmaq. qudurmaq. yufqadmaq. yufqatmaq.

yuvlunmaq$_{ka}$: **1**. yuvarlanmaq. yumarlanmaq. - dağdan daşlar **yuvlundu**. **2**. **yuplunmaq**$_{ka.}$ yumşanmaq. aydılaşmaq. özünə gəlmək. yarqılmaq. əxlaq tapmaq.

yuvluşmaq$_{ka}$: yufluşmaq$_{ka.}$ yuvarlanmaq.

yuvmaq$_{ka}$: **1**. yuvarlamaq. yumarlamaq. fırlatmaq. - topu **yuv**: fırlat. **2**. yozmaq. **3**. qoşmaq.

yuvsamaq$_{ka}$: yuvarlamaq yazmaq, istəmək. yuvarlamaq. qaltarmaq. dığırlatmaq. fırlatmaq. - sözü **yuvsatma**.

yuvturmaq$_{ka}$: yuvarlatmaq. dığırlatmaq. - o topı **yuvarladı**.

yuvuq$_{ka}$: **yuğuq**. (selinən) yuvarlanıb, yuvulub dığırlanan daş, qaya. girdələnmiş, saf suf daş.

yuvulmaq$_{ka}$: **1**. uslandırılmaq. axıtılmaq. yuvarlanmaq. toplanmaq· - yuvalftıaq. **2**. yoğulmaq. yumşamaq. - qatqı yağı, daş ürəklər **yuvulsun**. **3**. ərişmək. olqunlaşmaq. yəvülmək. yığılmaq.

yuvulmaq$_{ka}$: yumulmaq. yığılmaq. - indi igid **yuvulsun**: **yığılsın**.

yuvuşmaq$_{ka}$: **yufuşmaq**$_{ka.}$ (< **yummaq**: yığmaq). **1**. yumaşlanıb, yığışmaq. yardımlaşmaq. yoldaşlıq edmək. birbiriylə dost olmaq. **2**. bir birinə dığılatmaq. göndərmək. - olar birbirigə topıq **yuvuşdular**: birbirinə atdılar. **3** yumuşmaq. yuvarlaşmaq.

yuyunmaq: silinmək. nərsəni nərsədən pozmaq, yumaq, silmək. - gözdən yaş **yuyunsun**, ürəkdən pas.

yüd$_{ka}$: üz. yüz.

yüdrük$_{ka}$: <> **yüdrük.**

yüftürmək: yüvmək$_{ka.}$ yiktürmək. yardımlaşmaq.

yüftürmək$_{ka}$: **yüğturmaq**$_{ka.}$ yiktürmək. yüvmək. bir şeylə iyilik edmək.

yüfüflüq$_{ka}$: **yoğuşlu.** ərməğanlı.

yüfüfmək$_{ka}$: **yoğuşmaq**. yardımlaşmaq. birbiriylə dost olmaq.

yüfüş$_{ka}$: yoğuş. hısımların (çox kərə qərdəğə qoyulan gəlini çəyiz yiyəsi edmək üzərə) paltar, mal ilə yardımlaşması.

yügürtmək: quşqurtmaq. uşqurtmaq$_{ka.}$ - iti üstümə uşqurtdu: quşqurtdu

yükləmək: yuturmaq$_{ka.}$ götürmək. almaq.

yüksək : yüksüq.

yüq : **yüriq**. 1. quş tükü. - quş **yələğ**. ox **yələği**. 2. **yük**$_{ka.}$ buxca.

- yükün açdırmaq. ödətmək. tülətmək$_{ka}$. dölətmək. **(yük # yok**)

yüqək : **yükək**$_{ka}$ (**y** <>.) **ükək**$_{ka.}$ 1. tabut. qabırcaq$_{ka}$. qabqırcaq. sandıq. 2. bürc. minarə.

yüqəkləmək : **yükəkləmək** (**y** <>.) **ükəkləmək**$_{ka.}$ qalaqlamaq. qalaq, qutu, sandıq yapmaq. bürc yapmaq.

yüqləksək$_{ka}$: yükləmək istəyən.

yüqləmədəçi$_{ka}$: yükləməyici. yükləməyən·.

yüqləmək: **yükləmək**. (**k** <> **ş**) **yüşləmək**. yüşürmək$_{ka}$. yükürmək. yüküşmək. yüşüşmək. yüşmək.

yüqləmkli$_{ka}$: yükləmək diləğində. istəyndə olan.

yüqlənmək : **yüklənmək**. 1. arqaşmaq. çatılmaq. - el yükün iyid yüklənər, arqaşar. - köməkləşib arabadan yükləri yüklənib (arqaşıb) daşıdıq. 2. qatlanmaq$_{ka.}$ barlanmaq.

yüqləşməkdə: arqaşmaq$_{ka}$. arğaşmaq$_{ka}$. arxa arxaya gəlmək, çıxmaq.

yüqlətmək$_{ka}$: **yüklətmək**$_{ka}$. yüklettirmək. oxa yələk taxtırmaq.

yüqlü : barqaq. barlı. dolu. - **yüqlüq oq**: - **yüklük ox**$_{ka}$**.** yələkli oq.

yüqlüq : **yüklüq**. yüdrük$_{ka.}$ yük qoyulan yer. dolap. dilab. işqaf.

yüqmək$_{ka}$: **yükmək**$_{ka.}$ toplamq.

yüqrək : **yügrək**. **yügür**. çapar. peyk.

yüqrəmək: **yügrəmək**. uqramaq. yügürmək. - **öpkəm** gəlib uqradım: ofgələnib yügürdüm.

yüqrən : **yügürgən**. 1. çapar. xəbəçi. öndə gedib çav xəbər çatdıran. 2. qaçağan. itən. iti gedən.

yüqritmək: **yügritmək**. (**y** <>.) ügritmək$_{ka}$. yırqatmaq. sallatmaq.

yüqrmək: yükrmək. yükləmək. - öz işini ayrısına **yükürmə**.

yüqrük : 1. yüğrük. ükrük. yügürgən$_{ka}$. iti gedən nə. - **yügrük** gediş. 2. dərin. bacarıqlı. ağıllı. - **yügrük** bilgə.

yüqrüq$_{ka}$: **yügrük**. 1. qoşucu. 2. geçici. 3. bilgə bilgin ağıllı. ərdəmu, usumlu kişi.

yüqrüm : **yüqrüm**$_{ka}$ **yer**: bir yügrümdə, bir qaçmaqda yorulan yer.

yüqrüşmək: **yügrüşmək**$_{ka.}$ qoşuşmaq.

yüqsək$_{ka}$: **yüksək**$_{ka.}$ **yükkəs**. **yüksük**. uca. yuxar. ucalan. - **yüksək** dağ.

yüqsəklik : . atızlıq. edizlik$_{ka}$**.**

yüqsəlişmək: çıxışmaq. ağışmaq. ağlışmaq. alğışmaq.

yüqsəlmək: çıxmaq. ağmaq. ağsamaq$_{ka}$.

yüqsəlmək: hörlənmək. örlənmək. orlanmaq. horlanmaq. bəlirmək. çıxmaq.

yüqsəltmək : **yüksəltmək**. qopsamaq$_{ka.}$ - **yoqarı qopsamaq**: yuxarı qoğzamaq.

yüqsəmək$_{ka}$: **1**. yüksəlmək. uzamaq. **2**. uzanmaq. ucalmaq.

yüqsüq : **yüksüq.** yüksək.

yüqsül : **yüksül**. varlı. (# yoxsul).

yüqsümək: **yüksümək**. yüklənmək.

yüqülmək : **yükülmək**. yığılmaq. yuğulmaq. - indi igid yükülsün: iyidləri yığılsın.

yüqüm : **yüküm** . uca. ulac. alça. yumuşaq xuylu. incə. uslu. həlim. bilən.

yüqün : **yükün 1**. bəndə. əbd. **2**. **yüqün !**: əğil. səcdə qıl. - yalnız ona **yükün**. **3**. qurman**.** tapın. amadə baş.

yüqünc : **yükünc**. **1**. ibadət. namaz. - **yüküncə** qalxmaq. - o yükünc eddi: namaz qıldı. **2**. əbd. qul. mürid. tabe'. - tanrı yükünclәri.

- **yükünc** qılmaq, edmək: ibadət edmək.

- **yükünc yükünmək**: baş əğmək. ibardət edmək.

- **yükünc** etişmək: ibadət, namaz qılmaq.

yüqünçü: **yükünçü**. yükündüçü. tapınçı. tapındaçı. abid.

yüqündəçi: **yükündəçi$_{ka}$** ibadət edən. baş əğən.

yüqün$_{ka}$: **yükün$_{ka}$** qəm. - güvüc yükün: kiçik yular. çılbır·.

yüqünqən$_{ka}$: yüfünən.

yüqünqüçi$_{ka}$: **yükünqüçi$_{ka.}$** ibadət edən. baş əğən.

yüqünmək$_{ka}$: **yükünmək$_{ka}$** səcdə edmək. ibadət edmək. namaz qılmaq. böyük önündə əğilmək. ba. əğmək.

yüqür : **yügür.** çapar. yügrək. peyk.

yüqürgən$_{ka}$: **yügürgən$_{ka}$**. yüqrük. yüğrük. ükrük. iti gedən nə. qoşucu, yügrük at·. - **yügrük** gediş.

yüqürqün : darı kimi qırmızı dənəli bir bitgi·.

yüqürmə ! : **yügürmə !**: alaqıl$_{ka}$ **!**. ala$_{ka}$ **!**: dayan **!**. tələsmə **!**.

yüqürmək$_{ka}$: **1**. (at) qoşmaq. yügrükcə qoşmaq. **2**. keçmək. səğirtmək. **3**. bəzə ərlş yïpmaq. .

yüqürmək$_{ka}$: **yükürmək$_{ka}$** (**k <> ş**) **yüşürmək**. **1**. yüşləmək. yükləmək. **2**. uqramaq. yügrəmək. - **öpkəm** gəlib uqradım: ofgələnib yügürdüm.

yüqürtmək: qaçıtmaq. qoşturmaq. - at **yügürtmək**.

yüqüşmək: **yüküşmək$_{ka}$** (**y <> ş**) yükləşmək. yüşüşmək. yükləmək.

yüləmək$_{ka}$: dəstəkləmək. dəstək vurmaq. güvənmək ·.

yülılmaq$_{ka}$: **yülıtmək**. **yolutmaq**. **yülıltmək$_{ka}$**. **yoldurmaq**. yolunmaq.

yülıltmaq$_{ka}$: <> **yülınmaq$_{ka}$**.

yülümək : <> **yülımaq**$_{ka}$.

yülütmək$_{ka}$: **yülıtmək**. **yolutmaq**. **yülıltmaq**$_{ka}$. **yoldurmaq**. dərcətmək (> **tıraş** ettirmək). aldırmaq. - saçın **yolutmaq**.

yümmək$_{ka}$: yummaq.

yümnülü: qutsağ. xoş yümn. açıq, yaxcı fala.

yümtirmək: yumdurmaq·.

yümülqən$_{ka}$: yumulan.

yümülmək$_{ka}$: yumulmaq.

yüngül : yenik$_{ka.}$ yeğni. sapaq. səpük. ərsov. ucuz. xəfif.

yüngüllük: yeğnilik. daşqınlıq. qurğuluq$_{ka}$. zəvzəklik.

yünğ$_{ka}$: yün. yün süməği. pambıq.

yünlətmək: yün qırqtırmaq. yunğlətmək$_{ka}$.

yürə$_{ka}$: **yörə**$_{ka.}$ **yörgə**. **yerə**. **yürə**. döğrə. çevrə. yer. mühit. - bu **yörə** dolanma daha. - pozuq yörə.

yürəklənmək$_{ka}$: cəsarət göstərmək. yiğitlənmək.

yürəkli$_{ka}$: yürəği bək, bərk. yiğit. cəsur. ürəkli.

yürqenmək$_{ka}$: **1**. yörqəşmək. örtülmək. sarılmaq. birbirinə girmək. dolaşmaq. qarışmaq. **2**. yörgənmək$_{ka}$. örtülmək. sarılmaq.

yürqəşmək: yörqəşmək$_{ka.}$ sarılmaq. birbirinə girmək. dolaşmaq. qarışmaq.

yürqəyək: ulaşmış.

yürümə : yerimə. yorığ$_{ka.}$ yoruq. borıq. axma. gediş. xuy.

yürütmək: **yorıtmaq**$_{ka}$. **yeritmək**. **yoğurtmaq**. açmaq. sürtmək. sürdürmək. - ot onun qarnın **yürütdü**: yorıdı.

yüşənğ$_{ka}$: üşənq. düz parlaq, şmal taş

yüşərik : üşəriq taş$_{ka.}$ düz qaya.

yüşilmək$_{ka}$: yoşılmaq. əli işə yatışmaq. udumlaşmaq. işilmək. yişilmək. yuşılmaq. yuşulmaq. yüşülmək.

yüşləmək: (**ş** <> **y**) **yükləmək**. yüşürmək$_{ka}$. yükürmək.

yüşmək$_{ka}$: yükləmək. axıtmaq. yuşmaq.

yüşülmək: **1**. üşümək. yığışmaq. yişilmək. yuşılmaq. yuşulmaq. yüşilmək$_{ka}$. yoşılmaq. əli - qanı axıb **üşüldü**. **2**. işə yatışmaq. udumlaşmaq. işilmək. **1**. **tökülmək**. axmaq. - **qabu** qamuğ deşildi, qanı axıb yüşüldü: bədəni bütün dəlik dəlik oldu, qanı axdı.

yüşürmək$_{ka}$: (**ş** <> **y**) **yükürmək**. yüşləmək. yükləmək.

yüşüşmək : (**ş** <> **y**) yüküşmək. yükləşmək.

yütrük$_{ka}$: yüklüq. yük qoyulan yer. dolap. dilab. işqaf.

yüvmək$_{ka}$: yiqtürmək. yiktürmək. yüftürmək. yardımlaşmaq.

yüvsəmək$_{ka}$: könül almaq istəmək. yavsamaq.

yüyələmək: lülələmək. talqışmaq$_{ka.}$ dürməkləmək. bükmək.

yüyrək : - açınan at **yüyrək** olur: tumar görmüş at yeyrək, yorqa olur.

yüz : **yüz**$_{ka}$**.** **1**. üz. çəhrə. vichə. **2**. sayıda yüz·.

yüzəriq$_{ka}$: üzərlik otu. əldrük. ilrük. yıdıq ot.

yüzqəşmək$_{ka}$: üzə çıxmaq.

yüzlənmək$_{ka}$: üzünü dönmək. sayqılanmaq. quluq gözləmək.

yüzlüq$_{ka}$: üzlü.

yüzmək$_{ka}$. : **1**. üzmək. soymaq. ayırmaq. yayılmaq. dağılmaq. **2**. çox axmaq. süzmək. **3**. açmaq. yormaq. yozmaq.

yüztürmək$_{ka}$: üzdürmək.

yüzüq$_{ka}$: üzük.

yüzüt : **üzüt**. **1**. xeyirsiz. çimri. sövmə ilaraq işlənir. **2**. zalim. rəhmsiz. **3**. qırıt. - **soy üzüt**: soy qırım. qətli am.

yüzütmək$_{ka}$: üzdürmək. öldürmək.

Z

zab : **tab**. **şəp**. **çap**. itiliyi yetirən sözcük. çabuq. tez. yeyin. - **zab zab**$_{ka}$: çabuq çabuq. **- zap zap bar**$_{ka}$: zıp zıp qaç. iti ged.

zar : **car**. **çar**. pöz. qandır$_{ka}$. yalqaq, yoxacıq, dəriciq, qabıq.

zart zurt : fart furt. sart surt kimi səs çıxarmaq.

zəngin : barlıq$_{ka}$. bay$_{ka}$.

zənginləmək. : bayumaq$_{ka}$.

zənginləşmək: tuplənmək$_{ka.}$ diblənmək. diplənmək. kökləşmək. bayuşmaq$_{ka}$. bayışmaq.

zənginlətmək: devlətlətmək. bayutmaq$_{ka}$. (**y** < > **d** < > **z**) bədütmək$_{ka}$. bəyütmək. böyütmək. böyütmək. bulğaytmaq. ulğaytmaq. zənginlətmək. devlətlətmək. - tanrı məni **bayutdu**.

zəvzəklik: yeğnilik. yüngüllük. daşqınlıq. qurğuluq$_{ka}$. **- zəvzəklik edmək**: qurqırmaq$_{ka}$. yeğnilik edmək.

zıp zıp : - **zıp zıp qoşmaq**: **zap zap barmaq**$_{ka}$. qaçmaq. çabuq gedmək, gedmək. tələsmək. :

zivən : zivgən. tayığ$_{ka.}$ cayıq. cayan. caysıq. qayqın.

zivgək : yarsqaq$_{ka.}$ sürüşgən yer. ayağın qayabiləcəkl yer.

zivgən : zivən. tayığ$_{ka.}$ cayıq. cayan. caysıq. qayqın.

zivmək : suçmaq$_{ka}$. sürüşmək. - pıçaq əlimdən **suçdu**. yağlı şey suçan olur.

zor : qadaq. çətin. düğün. qadır. qatır. çətin. güc.

zünqüm : bir çeşit çin ipəklisi.